# QARABAĞ AZƏRBAYCANDIR!

YAP-ın bütün uğurlarının arxasında xalqın inamı və dəstəyi dayanır!

10



SƏS
№ 208 (6649) 15 noyabr 2022-ci il. Qiyməti 60 qəpik

# Tariximizə yazılan Zəfər salnaməsi!



2

# Türkiyənin terrora cavabı çox ağır və amansız olacaq!




3



Dəm qazı kabusundan necə qorunmalıyıq?

16

“Yeni Azərbaycan Partiyası: Heydər Əliyevdən İlham Əliyevə”



8

Paşinyandan növbəti SİYASİ HƏYASIZLIQ



13

Dağıdılmış tarixi-dini abidələrimiz: uğurlu layihələr



7

Şəhid, qazi əvəzinə, casus olmaq...



5

Rusiyanın Vardanyan layihəsi: hədəfdə olan separatçı Qarabağda rahat gəzir (?!)



14

# Tariximizə yazılan Zəfər salnaməsi!

## *İlham Əliyev: "Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik"*

Uzun illər dövlət başçısının apardığı danışıqlara baxmayaraq, Ermənistan təcavüzkar siyasətindən əl çəkmədi. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan döyüş meydanında məğlub oldu. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul olunmuş qətnamələri Azərbaycan Respublikası və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqləmiş oldu. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi, qaçqın və köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırdı. Bu qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atdı. Bu münaqişənin nizamlanması ilə bağlı danışıqlar beynəlxalq hüquq və normalar və bu çərçivədə qəbul edilmiş sənəd və qərarlar əsasında davam etdirildi. İllərlə davam edən danışıqlara baxmayaraq, Ermənistan təcavüzkar siyasətindən əl çəkmədi.





### “ƏZİZ HƏRBÇİLƏR, SİZƏ BORCLUYUQ, SİZİN KİMİ ON MİNLƏRLƏ ƏSGƏR, ZABİTƏ BORCLUYUQ VƏ AZƏRBAYCAN XALQI BUNU YAXŞI BİLİR”

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən, zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi. ”Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik. Buna görə, əziz hərbçilər, sizə borcluyuq, sizin kimi on minlərlə əsgər, zabitə borcluyuq və Azərbaycan xalqı bunu yaxşı bilir. Mən də Ali Baş Komandan kimi sizinlə fəxr edirəm”. Bu fikirləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfər Günü münasibətilə Şuşada keçirilən tədbirdəki çıxışında bildirib.Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərildi və Prezident İlham Əliyev siyasi iradəsini nümayiş etdirdi, prinsipial mövqeyindən dönmədi. Güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasında bizi irəliyə doğru apardı. Dünyaya, düşmənə məğrur və yenilməz xalq olduğunu göstərən Azərbaycan Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək işğala son qoydu. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti və ”Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur”, - deməsi böyük bir Zəfər tariximizə çevrildi. Bu tarix bu günün və gələcəyin nəsillərinə iftixar yaradan bir gün oldu. Azərbaycan xalqı ”dəmir yumruq” əməliyyatı ilə torpaqlarını işğaldan azad etdi.

### “ƏGƏR BİZ HANSISA ÖHDƏLİYİ ÖZ ÜZƏRİMİZƏ GÖTÜRMÜŞÜKSƏ, ONU YERİNƏ YETİRİRİK”

”Biz, bütün beynəlxalq razılaşmalara həmişə hörmətlə yanaşırıq. Biz ədalətli insanlarıq və ədalətli ölkəyik. Əgər biz hansısa öhdəliyi öz üzərimizə götürmüşüksə, onu yerinə yetiririk. Biz 2020-ci ilin 10 noyabr Bəyanatında üzərimizə götürdüyümüz bütün öhdəlikləri yerinə yetiririk”- deyə Prezident bildirib. Ermənistanın öz öhdəliklərini yerinə yetirmədiyini qeyd edən dövlətimizin başçısı deyib: ”İkinci Qarabağ müharibəsindən dərhal sonra, sadəcə olaraq, o qədər qorxu içində idi ki, təbii, o müddəaları yerinə yetirmişdir və bir güllə atılmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında olan əraziləri bizə qaytarıldı. Əgər qaytarmasaydı, yenə də başlarını əzəcəkdik. Amma ondan sonra? Ondan sonra yenə vaxt uzatmağa başladı. Mən bir daha demək istəyirəm, o öhdəlik hələ tam yerinə yetirilməyib. Erməni silahlı qüvvələri Qarabağda nə gəzir? Bizim səbrimiz tükənməz deyil və bir daha xəbərdarlıq etmək istəyirəm, əgər bu öhdəlik yerinə yetirilməsə, Azərbaycan lazımi addımlar atacaq”.Azərbaycan Prezidenti deyib ki, Zəngəzur dəhlizi Ermənistanın öhdəliyidir: ”Biz iki il ərzində Laçın yolu ilə Ermənistandan Qarabağa və əks istiqamətə gedən maşınlara toxunmuruq. ”Biz öhdəlik götürmüşük, yerinə yetiririk, sərbəst hərəkət. Ermənistan da öhdəlik götürüb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında yol bağlantısı olsun. İki il keçib üstündən, nə texniki-iqtisadi əsaslandırma var, nə hansısa hərəkət var, nə dəmir yolu, nə də avtomobil yolu. Biz nə vaxta qədər gözləməliyik?”.Dünyanı öz qüdrəti ilə təəccübləndirən Azərbaycan tarixdə misli görünməmiş bir tarix yazdı. Azərbaycan xalqı şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Azərbaycan xalqı ikinci ildir ki, öz Zəfər gününü qeyd etdi.

### “BİZ İKİ İL ƏRZİNDƏ BÖYÜK QURUCULUQ İŞLƏRİ GÖRMÜŞÜK, QARABAĞI VƏ ŞƏRQİ ZƏNGƏZURU FAKTİKİ OLARAQ YENİDƏN QURURUQ VƏ QURACAĞIQ”

Bu gün artıq Azərbaycan işğaldan azad olunan ərazilərində abadlıq-quruculuq işlərini həyata keçirir. ”Müharibədən keçən iki il ərzində biz öz siyasətimizi davam etdirmişik. Biz iki il ərzində böyük quruculuq işləri görmüşük, Qarabağı və Şərqi Zəngəzuru faktiki olaraq yenidən qururuq və quracağıq. Eyni zamanda, Ordumuzu gücləndiririk və gücləndirəcəyik”, - deyə Cənab Prezident bildirib. Dövlətimizin başçısı deyib ki, bizi indiki çərçivələrdə saxlayan Ermənistanın hansısa havadarının bəyanatı deyil, bizim öz siyasətimizdir. Biz heç kimdən qorxmuruq, heç kimdən çəkinmirik. Müharibə iki il bundan əvvəl başa çatsa da, narahatedici məqamların olduğunu diqqətə çatdıran Azərbaycan Prezidenti erməni xalqına müraciətlə deyib: ”Onlar bu otuz ilin işğalının acılarını indi görürlər. İşğal nədir, itki nədir, indi görürlər. Biz, sadəcə olaraq, onlara cavab vermişik, biz öz torpağımızda vuruşmuşuq, işğalçını torpaqlarımızdan qovmuşuq. Onlar bunu anlamalıdırlar ki, xaricdə oturan və bu bölgəyə bir oyun meydançası kimi baxmaq istəyən dairələrin qurbanına ikinci dəfə çevrilməsinlər”. Dövlətimizin başçısı bildirib ki, burada əsas söz sahibi, əsas güc sahibi Azərbaycandır. ”Bizim Ordumuz qəhrəmanlıq, peşəkarlıq, fədakarlıq göstərib. Lazım olarsa, bir daha göstərərik, istədiyimizə nail olarıq, bunu hər kəs bilir və bizim sərhədimizdə Ermənistana dəstək olaraq hərbi təlim keçirənlər də bilsinlər. Bizi heç kim qorxuda bilməz. Ermənistan yaxşı qonşuluq siyasəti aparmaq istəyirsə, birincisi, 2020-ci ilin 10 noyabr Bəyanatının bütün müddəalarını yerinə yetirməlidir. Azərbaycanla sülh üzrə aparılan danışıqlarda səmimi olmalıdır. Süni şəkildə vaxt uzatmamalıdır, hansısa möcüzəni gözləməməlidir ki, kimsə gəlib bunların yerinə vuruşacaq. Heç kim gəlib onların yerinə vuruşmayacaq, gəlib vuruşsa da, qarşısında yenə də Azərbaycan Ordusunu görəcək ”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

***Zümrüd BAYRAMOVA***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev İstanbulun mərkəzində törədilmiş partlayış nəticəsində insanların həlak olması ilə əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu göndərib. AZƏRTAC xəbər verir ki, məktubda deyilir: ”İstanbulun mərkəzində törədilmiş xain partlayış nəticəsində insanların həlak olması və xəsarət alması xəbərindən olduqca sarsıldıq.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm”.

***

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva İstanbul şəhərində baş vermiş partlayış nəticəsində insanların həlak olması ilə əlaqədar Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğana başsağlığı məktubu göndərib. AZƏRTAC xəbər verir ki, məktubda deyilir: ”İstanbul şəhərində baş vermiş partlayış nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm”.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu əməkdaşlarının ”Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

ANALİTİK+AKTUAL

# Türkiyənin terrora cavabı çox ağır və amansız olacaq!



Noyabrın 13-də İstanbulda törədilmiş qanlı terror cinayətinin ardınca Türkiyənin müvafiq qurumları dərhal hərəkətə keçdi və aparılan operativ fəaliyyət nəticəsində həmin hadisəni törədən cinayətkarlar aşkara çıxarılaraq saxlanıldı. Digər tərəfdən, Türkiyənin daxili işlər naziri Süleyman Soylunun baş verənləri şərh edərkən irəli sürdüyü bir sıra fikirləri də diqqət çəkməyə bilməzdi. Lakin fakt budur ki, bütün sahələr üzrə inkişaf və tərəqqi yolunu tutan, regional gücdən beynəlxalq gücə çevrilən Türkiyənin bu reallığı ilə barışmaq istəməyən güclər də artıq üzə çıxdı. Terror cinayətinin isə məhz PKK-nın Suriya qolu tərəfindən həyata keçirilməsi növbəti kartları üzə çıxarmış oldu. Məhz bu baxımdan, Türkiyənin DİN-nin rəhbərinin özündə növbəti mühüm məqamları əks etdirən fikirləri bütün diqqətləri onun üzərinə yönəltmiş oldu. Və bu məsələdə onsuz da əvvəldən Türkiyəyə qarşı bəlli mövqedə dayanan bir sıra siyasi dairələrin həmin addımları özünü sübut etmiş oldu.



## Süleyman Soylu: "Bizə nə cavab verildiyini, nə mesaj verildiyini çox yaxşı şəkildə bilirik... Aldığımız bu mesaja çox güclü bir mesaj verəcəyik"

### "Uğurlu bir şəkildə həyata keçirilən əməliyyatda terrorçular saxlanıldı. Əgər saxlamasaydıq, bu gün Yunanıstana qaçacağıydılar"

Mediaya açıqlama verən və həmin açıqlamasında mühüm mesajlar ötürən Süleyman Soylu bildirdi ki, əgər terrorçu şəbəkəsi saxlanılmasaydı, onlar Yunanıstana qaçacaqdılar. "Uğurlu bir şəkildə həyata keçirilən əməliyyatda terrorçular saxlanıldı. Əgər saxlamasaydıq, bu gün Yunanıstana qaçacaqdılar", deyə Soylu bildirib.

DİN rəhbəri hadisənin haradan və necə koordinasiya olunduğu barədə məlumatlı olduqlarını deyib və kifayət qədər maraqlı bir nüansı vurğulayıb. Daha dəqiq desək, ABŞ-a tərəf işarə edib. SİTAT: "Biz, bizə verilən mesajları aldıq. Təkrar altını cızaraq ifadə edirəm: Amerikanın səfirliyinin başsağlığı diləklərini qəbul etmirik, rədd edirik. Kobanini terror bölgəsi kimi bəsləyən və oradan Türkiyənin sabitliyini pozmağa çalışan bu anlayışa, öz senatorları vasitəsi ilə pul göndərən bir dövlətlə müttəfiqliyimiz əlbəttə ki, mübahisə olunmalıdır. Biz heç kimin düşməni deyilik, kimsənin torpaqlarında gözümüz yoxdur, heç kimə qarşı riyakarlıq etmirik, amma bu riyakarlıqlara da əlbəttə ki, dözəcək gücümüzün qalmadığını ifadə etmək istəyirəm".

Qardaş ölkənin DİN rəhbərinin kifayət qədər sərt və açıq mesajı artıq belə nəticəyə gəlməyə zəmin yaradır ki, Türkiyə dövlətinin apardığı terrorqa qarşı barışmaz mücadilə siyasəti artıq daha da gücləndiriləcək. O da əbəs deyil ki, Soylu "Aldığımız bu mesaja çox güclü bir mesaj verəcəyik", deyə vurğulayıb. SİTAT: "Bizə nə cavab verildiyini, nə mesaj verildiyini çox yaxşı şəkildə bilirik. Əməliyyatlar davam edir...".

### "Ya mərtəbədən atın, ya da kanala atın deyə açıq bir şəkildə təlimat var"

Onun sözlərinə görə, əgər kimlər ki, PDY-ni bəsləyirsə, kimlər ki, PKK ilə daxili




kəşfiyyat cəhətindən iş birliyi görürsə cinayətkar da odur. "Kartlar çoxdur, bunu mübahisə etməyin də anlamı yoxdur", deyən Soylunun daha bir fikri də diqqət çəkib. O, terrorçuların idarə olunduqları mərkəzin təlimatlarını dinlədiklərini açıqlayıb. Belə ki, terrorçunun ələ keçməməsi üçün onu təqib edənlərə belə bir təlimat verilib , "Ya mərtəbədən atın, ya da kanala atın deyə açıq bir şəkildə təlimat var", deyə Soylu bildirib. Onun sözlərinə görə, partlayışdan sonra terrorçu öldürülməli, cinayət hadisəsinin araşdırılmasına əngəl olacaq bütün faktlar aradan qaldırılmalıydı. Lakin hüquqmühafizə gücləri, kəşfiyyat birgə fəaliyyətləri nəticəsində qarşı tərəflərin cəhdləri baş tutmayıb, terrorçular ələ keçirilib.

### "Altını cızaraq demək lazımdır ki, biz millət olaraq birlik içində, bərabərlik içində güclü olmalıyıq. Bunlara boyun əyməməliyik..."

Süleyman Soylu onu da qeyd edib ki, Türkiyənin ətrafında bir sıra düşmən mövqeli cinahlar var. SİTAT: "İstanbul son 6 ildir belə bir terror hadisəsi yaşamayıb. Sadəcə bu il 200 terror hadisəsinin qarşısı alınıb, amma terrorun da üzü amansızdır. Siz 200 terror hadisəsinin qarşısını alarsınız, ancaq onlardan biri partlayar və canımızı yandırar. Əlbəttə, altını cızaraq demək lazımdır ki, biz millət olaraq birlik işində, bərabərlik içində güclü olmalıyıq. Bunlara boyun əyməməliyik...".

### Soyludan paylaşım

Yeri gəlmişkən, Süleyman Soylu terrorçunun ələ keçirilməsi ilə bağlı bu fikirlərini də paylaşıb. SİTAT (türkcə): "Küçükçekmece'de yakalandı. Daha önce Esenler'de bir atölyede, Kobani'den gelen bir telefonla muhafaza edildi. Ardından patlattıktan sonra yine Esenler'e gitti. Ardından Esenler'den bir başka araçla Küçükçekmece'ye intikal etti. Biz, İkitelli'de 112 civarına kadar takip ettik. Sonra kaybettik kamera kayıtlarını. Sonra tekrar onu götüren şahsı yakalayıp, bu networkün bir parçası olan şahsı yakalayıp onu sorgulayınca bir sokakta olduğunu öğrendik ve o sokağa yaptığımız operasyon çerçevesinde de kıskıvrak, o evde ele geçirilmiş oldu. Onunla beraber bu olayı tertipleyen, terör örgütü belki buna üzülecek ama ona 'Öldür' talimatı verdiği kişiyi de yakaladık. Yani esas itibarıyla terör örgütünün tam bağlantısını da burada yakaladık. Birkaç operasyon daha var. Operasyonlar devam ediyor. Ben özellikle milletimize geçmiş olsun ve başsağlığı diliyorum. Emniyet Teşki-




latımıza da patlama sonrası, yakın bir zaman dilimi içerisinde bu gayreti, tüm istihbarat birimleriyle ortaya koyarak gerçekleştirdiği sonuç için de minnettarız."

### Azərbaycan qardaş Türkiyənin yanındadır!

Beləliklə, artıq Türkiyə bundan əvvəl həyata keçirdiyi terrorla mücadilə siyasətini daha da sərtləşdirəcəyini rəsmi şəkildə bəyan edir. Və bu fakt daha bir amili də ehtiva edir ki, qardaş ölkə bu kimi məsələlərdə qardaşı və müttəfiqi Azərbaycana da arxalana bilər. Çünki Azərbaycan da 1988-ci ildən başlayaraq erməni terrorlarına məruz qalıb, on minlərlə insanımız qanlı cinayətlərin qurbanlarına çevrilib. Əbəs deyil ki, həm Türkiyə, həm də Azərbaycan tərəfindən dəfələrlə



bəyan edilib ki, kədərimiz və sevincimiz daim qarşılıqlı olub və bu gün hər bir Azərbaycan vətəndaşı qardaş Türkiyədə baş vermiş qanlı, qəddar və amansız terror hadisəsindən sarsılıb...

**Rövşən RƏSULOV**

# Yeni Azərbaycan Partiyası - 30

## YAP-ın yaradılmasının 30 illiyi münasibətilə ağacəkmə aksiyası keçirilib

**Noyabrın 12-də Yeni Azərbaycan Partiyası (YAP) və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) birgə təşkilatçılığı ilə YAP-ın təsis olunmasının 30 illiyi münasibətilə ağacəkmə aksiyası keçirilib.**

Abşeron rayonu, Pirəkəşkül kəndi ərazisində keçirilən aksiyada YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, partiyanın İdarə Heyətinin, Veteranlar Şurasının, Təftiş Komissiyasının və Gənclər Birliyinin üzvləri, Milli Məclisdə Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar, YAP Mərkəzi Aparatının əməkdaşları, partiyanın Bakı, Abşeron və Sumqayıt rayon və şəhər təşkilatlarının, həmçinin ETSN-nin nümayəndələri iştirak ediblər.

Aksiya çərçivəsində Pirəkəşkül kəndi ərazisində 4 hektar sahədə 2 mindən çox müxtəlif növ ağac əkilib. Eyni zamanda, ağacların əkildiyi ərazilərdə təmizlik işləri aparılıb, ağaclara aqrotexniki qulluq göstərilib.

Bu nəcib təşəbbüs ölkəmizdə həyata keçirilən yaşıllaşdırma siyasətinə daha bir mühüm töhfədir.

Müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllıqların və parkların salınmasına, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xüsusi diqqət yetirib. Hazırda bu siyasət Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yeni Azərbaycan Partiyasının nümayəndələri də bu prosesə layiqli töhfələr verirlər.













## Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı qardaş Türkiyə xalqına başsağlığı verib

**Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı İstanbul şəhərində baş vermiş partlayış nəticəsində insanların həlak olması və yaralanması ilə əlaqədar qardaş Türkiyə xalqına başsağlığı verib. Partiyanın rəsmi tvitter və feysbuk hesablarında paylaşılan başsağlığında qeyd edilib: "Qardaş Türkiyənin İstanbul şəhərində törədilmiş partlayış nəticəsində insanların həlak olması və xəsarət alması xəbərini böyük üzüntü ilə qarşıladıq.**



Bu vandalizm aktının sifarişçiləri və icraçılarını şiddətlə qınayır, hiddətimizi ifadə edir, həlak olanların ailələrinə, yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə şəfa tapmasını diləyir, hər zaman dost və qardaş Türkiyənin yanında olduğumuzu qətiyyətlə bildiririk. Dünyada söz və nüfuz sahibi olan, milli hədəflərinə doğru əmin addımlarla irəliləyən Türkiyə dövlətinə qarşı istənilən təxribat cəhdi iflasa məhkumdur. Yaşasın Türkiyə-Azərbaycan dostluğu, xar olsun düşmənlər!"

# Zəfərimizin tarixi təntənəsi - "Şuşa İli"

*Qalib Liderin qətiyyətinin və uzaqgörənliyinin, "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözü ilə əməlinin üst-üstə düşməsinin reallığıdır*




Bəli, 44 gün davam edən Vətən müharibəsinin 42-ci günündə - noyabrın 8-də azərbaycanlıların illərdir həsrətində olduğu Şuşa şəhəri işğaldan azad edildi və elə həmin gün Şuşada Azərbaycan bayrağı qaldırıldı. Və İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev "dəmir iradə" ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Yeni açılışlar, təməlqoymalar isə işğaldan azad edilmiş torpaqlarımızda başlanan tikinti-quruculuq, yenidənqurma işlərinin, yəni Qarabağın inkişaf planının tərkib hissəsidir.Bu ilin Şuşa ünvanlı, Şuşa hədəfli olması ilə dövlət başçımız həm xalqımızın, həm də dünya ictimaiyyətinin diqqətini bir daha bu qədim Azərbaycan şəhərinə yönəltmişdir. Bununla Azərbaycan dövləti Qarabağın qədim Azərbaycan torpağı və Şuşanın da əsl Azəraycan şəhəri olduğunu bir daha dünyaya çatdırır.

## PREZİDENT İLHAM ƏLİYEVİN "ŞUŞA İLİ" ÇAĞIRIŞI ƏSL AZƏRAYCAN ŞƏHƏRİ OLDUĞUNU BİR DAHA DÜNYAYA ÇATDIRIR

Bəli, Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə, Prezident İlham Əliyevin 19 illik gərgin əməyinin nəticəsində formalaşan güclü Ordumuz 30 il işğal altında qalan torpaqlarımızı 44 gün ərzində azad etdi, ölkəmiz öz ərazi bütövlüyünü təmin etdi, "Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı. Və İkinci Qarabağ savaşını "Dəmir yumruq"la qazanan Ali Baş Komandan İlham Əliyev dəmir iradə ilə işğaldan azad edilən şəhər və rayonları, qəsəbə və kəndləri bərpa edir, yenidən qurur və çox böyük layihələr reallaşdırır. Bir sözlə, bu ilin Şuşa ünvanlı, Şuşa hədəfli olması ilə dövlət başçımız həm xalqımızın, həm də dünya ictimaiyyətinin diqqətini bir daha bu qədim Azərbaycan şəhərinə yönəltmişdir. Bununla Azərbaycan dövləti Qarabağın qədim Azərbaycan torpağı və Şuşanın da əsl Azəraycan şəhəri olduğunu bir daha dünyaya çatdırır. Və Prezident İlham Əliyevin "Şuşa ili" çağrışı da qədim Şuşa şəhərinin işğaldan azad edildikdən sonra milli memarlıq ənənələri əsasında yenidən bərpa edilməsinə geniş meydan açacaq. Çünki Şuşa Azərbaycan üçün, sadəcə, bir şəhər deyil, xalqımızın maddi-mənəvi dəyərlərini özündə əks etdirən rəmz, əziz məkanıdır. Belə ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən şəhərin yenidən qurulması, abadlaşdırılması diqqət mərkəzində saxlanıldı. Yolların, tarixi abidələrin bərpasına, şəhərin su, elektrik təchizatının qaydaya salınmasına xüsusi önəm verildi. Bu, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa şəhərinə dəfələrlə etdikləri səfərlər zamanı bir daha öz təsdiqini tapdı. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

## ZƏFƏRİMİZİN TARİXİ TƏNTƏNƏSİ OLAN "ŞUŞA İLİ", ƏN ƏSASI İSƏ, ŞUŞANIN TARİXİ KİMLİYİNİN BİR DAHA ÖZÜNƏ QAYTARILMASIDIR

Bəli, "Şuşa İli"Azərbaycanın hərb meydanı ilə yanaşı, diplomatiya müstəvisində də qələbəsinin təsdiqi və dünyaya təqdimatı, Zəfərimizin tarixi təntənəsi, ən əsası isə, Şuşanın tarixi kimliyinin bir daha özünə qaytarılmasıdır. Bu "Dəmir yumruq" gücündən - Qarabağımızın, Şuşamızın dirçəlişinin reallaşdırılmasıdır. Bu, Qarabağın əsl sahibinin kim olduğunu dünyaya daha geniş şəkildə təqdim edilməsidir. Bu, Qarabağın əsl sahibinin kim olduğunu dünyaya daha geniş şəkildə təqdim edilməsidir. Bu Qalib Liderin qətiyyətinin və uzaqgörənliyinin, "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözü ilə əməlini üst-üstə düşməsinin reallığıdır. Artıq Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada ötən bir il ərzində şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilmişdir. Bir sözlə, bu gün Şuşa Azərbaycanın mədəniyyət paytaxtı olmaqla bərabər, qarşıdan gələn dövr ərzində beynəlxalq münasibətlərin, mühüm məsələlərin müzakirə olunduğu siyasi-diplomatik mərkəz rolunda çıxış edir. Həmçinin, belə bir qısa vaxtda dünyada analoqu olmayan layihəlşərin gerçəkləşdirilməsi Azərbaycan dövlətinin gücünü, onun malik olduğu potensialı və ən əsası Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi və bu gün Şuşa yenidən qurulur, özü də daha möhtəşəm, daha əzəmətli.

***RƏFİQƏ KAMALQIZI***



**MƏTANƏT**

# Şəhid, qazi əvəzinə, casus olmaq...

**Təəssüflər və çox təəssüflər! Bu gün eşitdiyimiz xəbər üçün minlərlə kərə təəssüflər. Biz 30 il-bir qərinəyə yaxın idi ki, Qarabağsız qalmışdıq. Qonşuluqdan kənar olmuş qonşumuz erməninin hiyləgərliyinə, xəyanətkarlığına, tamahına və murdarlığına, bir də özümüzdən olan xainlərin satqınlığına qurban getmişdi torpaqlarımız. Soydaşlarımız ev-eşiyindən zorla qovulmuşdu. 30 il idi ki, köçkünlük, didərginlik, hicran, həsrət qəlbimizi dağlayırdı...**

30 il idi ki, namus, qeyrət, şərəf dərdi çəkirdik. 30 il idi ki, torpaq dərdindəydik. Bir gün bu torpaqları geri almağa hazırlaşırdıq. Səsimiz dünya ilə bir olmuşdu. Haqqımızı arayırdıq. Səsimizə səs verən, dərdimizə dərman olan ölkə axtarırdıq. Dünya susduqca, biz səsimizi bir az da qaldırırdıq. Qarabağımızın sülh yolu ilə qaytarılmasını istəyirdik.

Başda ölkəmizin rəhbəri olmaqla, bütün xalq ayaq üstündə idi. Hər gün atdığımız bir addımla Qarabağa yaxınlaşırdıq. Biz Ali Baş Komandanımızın biz əmrinə müntəzir idik. Müharibəyə hazır idik. Lakin sülh dövləti, sülhsevər xalq olduğumuz üçün birinci sülh yolunu seçmişdik. Əks təqdirdə isə müharibə müharibə olaraq qalmaqda idi.

Bizlər bu istəklə, arzularla gecə-gündüz çalışarkən, Qarabağda Zəfər qazanarkən, sən demə içimizdə yenə də 90-cı illərin casus, xəyanətkar qırıntıları baş qaldırmaqda imiş. İran xüsusi xidmət orqanlarının yaratdığı və ifşa edilən casus şəbəkəsinin üzvləri kimi. İran İslam Respublikası xüsusi xidmət orqanları nümayəndələrinin Azərbaycana qarşı həyata keçirdiyi kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınması, yaradılmış casus şəbəkəsinin ifşa olunması istiqamətində DTX tərəfindən kompleks əməliyyat-istintaq tədbirlərinin davam etdirilməsi ilə bağlı bu gün oxuduğum xəbərlə böyük təəssüf hissi yaşadım. Bu xəbəri oxuyan hər kəsin bu hissi yaşaması təbiidir. Bizim övladlarımız cəbhədə Vətən, dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olarkən, sağlamlığını itirib qazi olarkən "belə "oğullarımız" da varmış",-deyə təəssüf hissi keçirməkdən başqa əlac varmı?

Həqiqətən çox təəssüflər. Bu torpaqda doğulmağınıza, bu torpağın çörəyi, suyu ilə böyüməyinizə, havası ilə nəfəs almağınıza təəssüflər olsun. O hansı dünya malıdır ki, sizləri Vətəni satmağa məcbur etdi? O hansı dünya malıdır ki, sizləri bu torpaqdan, xalqdan, millətdən qopmağa məcbur etdi? O hansı dünya malıdır ki, sizlərə casus statusu verdi? O status ki, neçə nəsil sonra da qohum-əqrəbanızın ayağına yazılacaq.

Harada idiniz müharibə vaxtı? Casusluqdamı? Ölkədən qaçırmışdılarmı sizi? "Sağ qalım",-deyə ürəyinizcə idimi bu? Nə üçün müharibə bölgəsində şəhid olanlarımız sırasında olmadınız? Nə üçün qazi deyilsiniz? Nə üçün Vətənin bir çağırışıyla sinəsini qabağa verən oğullarımızdan olmadınız? Nə üçün bu gün həyat yoldaşlarını müharibədə itirən qadınlarımızın əri, cəmi 2-3 aylıq ailələrimizin şəhid başçısı, üzüyü barmağında qaşsız qalan qızlarımızın nişanlısı, şəhid atalarının şəkilləri ilə təsəlli tapan uşaqların atası deyilsiniz?

Nə üçün bəlkə 10 yerdən xəsarət alan, hələ də xəstəxanalarımızda müalicə olunan, bir ömürlük şux yerişi üçün ayağına, bir toy-düyündə rəqs etməsi üçün qoluna həsrət qalan, hər biri müharibənin bir canlı şahidi olan qazilərimizdən deyilsiniz? Axı bu torpağın çörəyi, suyu ilə böyüyənlərin başı dik, alınları açıq olmalıdır. Sizləri nəyə layiq bildilər? Casus olmağamı?

Çox təəssüflər... Çox təəssüflər ki, aldanmısınız, satılmısınız. Çox təəssüflər ki, dörd divarımızın sirrini-sözünü bayıra çıxarıb bu xalqı təhlükə ilə üz-üzə qoymusunuz. Çox təəssüf ki, bu günlə yaşayıb, gələcəyi görə bilməmisiniz. Düşünmək üçün həbsxana künclərində çox vaxtınız olacaq. Düşünün, görün, əsl, sadiq vətəndaş olmaq, şəhid olub səmalara qalxmaq, qəlbərdə abidə ucaltmaq, qazi olub alınaçıqlığı ilə ömür sürmək, nəsillərə nümunə olmaq lazım idi, yoxsa casusluğu seçib Vətən xaini olmaqmı?

Təəssüf edirəm. Və sözün bitdiyi ana yetişdiyim üçün ta söz tapıb danışa bilmirəm. Deyə biləcəyim son kəlmə: Allah və qanunlarımız cəzanızı versin!

# "Mil" romanı Türkiyədə nəşr olunub

**"Mil" romanı hazırkı İranda türk xalqının əsrləri əhatə edən taleyini və mövcud durumunu təsvir edir. Əsər 1977-1979-cu illərdə keçmiş SSRİ-dən Tehrana ezamiyyətə göndərilən, əslən Azərbaycan türkü olan "Pravda" qəzetinin şərqşünas ixtisaslı müxbirinin həyat dramıdır. SİA AZƏRTAC-a istinadən xəbər verir ki, ümummilli lider Heydər Əliyevin keçmiş SSRİ-dəki bütün ictimai-siyasi proseslərə böyük təsir etmək imkanları, Ulu Öndərimizin tarixi şəxsiyyət kimi Suslov və Andropovdan çox-çox yüksəkdə dayanması əsərdə ədəbi ustalıqla obrazlı şəkildə ifadə olunur.**

Əsərin müəllifi AZƏRTAC-ın Türkiyə bürosunun rəhbəri, siyasi elmlər üzrə fəlsəfə doktoru Sabir Şahtaxtı, nəşrin rəhbəri Avrasiya Yazarlar Birliyinin (AYB) sədri Yaqub Öməroğludur. AYB tərəfindən nəşrə hazırlanan "Mil" romanı Ankarada fəaliyyət göstərən "BENGÜ" yayın evi tərəfindən çap edilib. Pəhləvi dövründə indiki İran ərazisində kök salıb dərinləşən türk düşmənçiliyinin əsasları və onun ənənə halına gətirilməsi məsələləri əsərdə obrazlı şəkildə, real faktların bədii fonunda əksini tapıb. Beləliklə, zəngin milli-mənəvi dəyərləri özündə ehtiva edən "Mil" romanı aşağıdakı mühüm amilləri özündə ehtiva edir:

-türk toplumunun genetik xüsusiyyətləri;
-Vətən və milli varlıq yolunda mübarizlik;
-zəngin türk ənənələri;
-tarixi miras olan türk dövlət idarəetmə metodları;
-Vətənə, millətə, dəyərlərə bağlılıq, yenilməzlik və sair.




Əsərdə cəmləşdirilən bütün tarixi proseslər, küçə, meydan və yer adları, o cümlədən vəzifəli şəxslərin ad və soyadları 1977-1979-cu illərdə mövcud olmuş şəkildə yazılıb. "Heydərbabaya salam" poemasının türkcə işıq üzü görməsinin əsl səbəbi, Urmu (Urmiyə) gölünün qurudulması cəhdinin arxasındakı məkrli məqsəd, şair Behrənginin öldürülməsi, Evin həbsxanasındakı işgəncə metodları, türk ailələrindəki sandıqlarda saxlanılan əl işlərindəki şifrəli tarixi sirlər, o cümlədən azərbaycanlı ailələrdə dünyaya göz açan uşaqların doğum sənədlərinə türk adlarının yazılmaması kimi mühüm məsələlər konkret faktlar üzərində rəvayətlər, dialoq və təsvirlərlə axıcı və oxunaqlı ədəbi dildə qələmə alınıb. Türk və içkeriya (çeçen) əsilli iki gəncin bitib-tükənməyən eşq hekayəsi kimi qələmə alınan roman əslində böyük və dərin mahiyyətli olan beynəlxalq səviyyəli siyasi prosesləri özündə əks etdirir. Əsər milli və dini mənsubiyyətindən asılı olmayaraq hər kəs üçün tərbiyəvi əhəmiyyət daşıyır, milli və dini özünüdərk tezislərini aşılayır. Ümumtürk həmrəyliyinə böyük faydalar gətirəcək, bədii-publisist janrda qələmə alınan əsərdə, həmçinin Azərbaycan-içkeriya-tatar dostluq və qardaşlıq telləri üçün olduqca vacib bir metod tətbiq edilib. Romanda Azərbaycan, çeçen və tatar qardaşlıq körpüsü üçün möhkəm sütunlar vardır. Bu sütunlar milli və dini dəyərlərdən yoğrulmuşdur. Əsərdə əvvəldən sonadək elm və yüksək mədəniyyət, mübarizlik və döyüşkənliyin vəhdət halında milli güvən formulası olduğu oxucuya aşılanır.

# Yeni Azərbaycan Partiyası - 30





# "Ölkəmizdə vətənpərvər və intellektual gənc nəsil formalaşıb"

## YAP-ın 30 illik yubileyinə həsr olunmuş şahmat üzrə turnirin final mərhələsi keçirilib















***Noyabrın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) 30 illik yubileyinə həsr olunmuş şahmat üzrə turnirin final mərhələsi keçirilib.***

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov hesabat məruzəsi təqdim edərək bildirib ki, oktyabrın 29-da start götürən turnirdə ümumilikdə 80-i kişi və 80-i qadın olmaqla 160 nəfər gənc iştirak edib. Turnirin qrup mərhələsi üzrə görüşlər Bakı, Xaçmaz, İmişli, Ucar, Gəncə, Yevlax, İsmayıllı, Cəlilabad və Şirvanda, "play-off" mərhələsi üzrə Ucar şəhərində keçirilib, final yarışları isə Bakı şəhərində təşkil olunub.

Bakı Gənclər Mərkəzində keçirilən final oyunlarında I yeri qadınlar üzrə Türkan Abdullayeva (Gəncə), kişilər üzrə isə Şahin Hacıyev (Göygöl) qazanıb. II yerin qalibləri qadınlar üzrə Lalə Rzabəyli (Sumqayıt), kişilər üzrə Həzrət Orucov (Quba) olub. Xədicə Xəlilova (Zaqatala) və Rüfət Hümbətov (Saatlı) isə müvafiq olaraq III yeri əldə ediblər.









Tədbirdə Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev tərəfindən oyunları idarə edən hakimlərə xatirə hədiyyələri təqdim olunub.

Qalib olan iştirakçılar diplomlar, medallar və xatirə hədiyyələri ilə mükafatlandırılıblar. III yerin qaliblərini Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Aynur Sofiyeva, II yerin qaliblərini YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə, I yerin qaliblərini isə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov təltif edib.

Turnirin bağlanış mərasimində çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov 12 Noyabr - Konstitusiya Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. O bildirib ki, 1995-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası hüquqi və demokratik dövlət quruculuğunun əsasını təşkil edib.

Bir neçə gün öncə Zəfər bayramının və Dövlət Bayrağı Gününün qeyd olunduğunu xatırladan Tahir Budaqov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm Zəfərin qazanılmasında, ölkəmizin ərazi bütövlüyünün və xalqımızın milli qürurunun bərpa olunmasında Azərbaycan gənclərinin müstəsna rolu olub.

YAP Sədrinin müavini qeyd edib ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət gənclər siyasəti nəticəsində vətənpərvər və intellektual gənc nəsil formalaşıb. Bu reallıq Azərbaycanın möhtəşəm Qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində də özünü təsdiqlədi.

Tahir Budaqov milli ruhda yetişmiş, sağlam əqidəli gənclərin Azərbaycanı beynəlxalq platformalarda da layiqincə təmsil etdiklərini diqqətə çatdırıb. O vurğulayıb ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin ətrafında sıx birləşən gənclərimiz müstəqil dövlətimizin parlaq gələcəyinin qurulmasında fəal iştirak edirlər: "İnanıram ki, gənclərimiz ölkəmizin inkişafı və üçrəngli bayrağımızın daim zirvələrdə dalğalanması üçün bütün imkanlarını səfərbər edəcəklər".

Tahir Budaqov turnir iştirakçılarını təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinə həsr olunmuş şahmat üzrə turnir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.








# Dağıdılmış tarixi-dini abidələrimiz: uğurlu layihələr

**"Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Vaxtilə böyük və çiçəklənən şəhər olmuş Ağdam o dərəcədə dağıdılıb ki, xarici ekspertlər onu "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan işğal zamanı 67 məsciddən 65-ni yerlə-yeksan edib, qalan 2 məscid isə ciddi zərər görüb və donuz, inək saxlanılması üçün istifadə olunub. Bu, bütün müsəlman dünyasına təhqirdir. İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən IX Zirvə Görüşündə çıxışı zamanı bildirib.**

Azərbaycan xalqı 30 ilə yaxın bir zamandan sonra işğaldan azad olunmuş torpaqlarımızda erməni vəhşiliyinin izləri ilə daha yaxından tanış olur. Ermənilərin işğal etdikləri ərazilərimizdə törətdikləri vandallığın nəticəsi olaraq tarixi-mədəni milli irsinə qarşı böyük zərbələr endirilib. İşğal altında olan ərazilərdə abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. Ermənistan qanunsuz silahlı birləşmələri tərəfindən dövlət əmlakının və xüsusi mülkiyyətdə olan əmlakın məhv edilməsi, talan edilməsi ilə bağlı Azərbaycan dövlətinə və vətəndaşlarına küllü miqdarda ziyan vurub.

Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun konvensiyasına zidd olsa da işğal altında və Ermənistanda qalan Azərbaycan mədəniyyət abidələrinin əksəriyyəti məhv edilib. Real sənədlərə nəzər salsaq görərik ki, həmin ərazilərdə təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz kimliklərini nəinki Azərbaycan xalqına, eləcə də bütün dünyaya göstərdilər. Şuşa, Ağdam, Qubadlı, Zəngilan və digər şəhərlərimizdə Ermənistan mədəni soyqırımı törədib, bu ərazilərdə dini ziyarətgah, məscid, muzey, arxeoloji yer, məzarlıq və çoxlu sayda digər mədəni və dini abidələri məhv edilib.

## DAĞIDILMIŞ DAŞINMAZ MƏDƏNİ İRS NÜMUNƏLƏRİ ERMƏNİ VANDALLIĞININ GÖSTƏRİCİSİDİR

Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.

Ermənilər Azərbaycanın adət-ənənələrini, tarixi abidələrini, musiqini, musiqi alətlərini, mətbəxini və digər nümunələrini öz adlarına çıxmağa çalışıblar. Bu məqsədlə, ermənilər hər bir yola, hətta cinayətə də əl atıblar. Azərbaycan xalqının mədəni irsinin qorunması, ermənilər tərəfindən özününküləşdirilməsinə yol verilməməsi üçün ciddi addımlar atılıb.Azərbaycan ərazisindəki bütün abidələr isə dövlət səviyyəsində qorunur. Multikultural və tolerant yaşam tərzi ilə dünyada tanınan Azərbaycanda bu mühitin formalaşması dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir insana olan bərabər münasibətin nəticəsidir. Dövlətimizin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə öz təsirini göstərir. Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir.

Erməni barbarlığının nəticəsi olaraq dağıdılan abidələrimiz qısa bir zamanda bərpa olunacaq və törətdikləri əməllərə görə, qanun qarşısında cavab verəcəklər. Qarabağdakı bütün müsəlman və xristian-alban abidələri Azərbaycan xalqının tarixi, mədəni və dini irsinə məxsusdur.Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva işğaldan azad edilmiş ərazilərimizdə erməni vandalizminə məruz qalmış, işğalçı dini, tarixi və yerli memarlıq abidəsi hesab edilən binaların bərpası və yenidən qurulmasına xüsusi önəm verirlər.

## ƏZƏLİ TORPAQLARIMIZDA ZƏNGİN İRSİMİZ YENİDƏN BƏRPA OLUNUR, QURULUR

Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri, ölkəmizin mədəniyyət beşiyi, "Qafqazın konservatoriyası" adlandırılan Şuşa şəhərində memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, 160-dək mədəniyyət və tarixi abidə, 22 ümumtəhsil məktəbi, 7 uşaq bağçası, 8 mədəniyyət evi, 14 klub, 2 kinoteatr, 3 muzey dağıdılmış, məbəd və məscidlər təhqir edilmiş, 20 kitabxana yandırılmışdır. İşğal zamanı dağıdılmış dini abidələr sırasında Yuxarı Gövhər ağa məscidi də yer almışdır. Erməni vandalları tərəfindən məscidin interyeri məhv edilmiş, minarələrinin dekoru zədələnmiş, örtükləri dağıdılmışdır. Qəbul edilmiş layihələrə əsasən, Heydər Əliyev Fondunun rəhbərliyi və "Paşa Holdinq"in maliyə dəstəyi ilə məsciddə ötən ilin noyabr ayından bərpa işlərinə başlanılıb. Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Şuşada olarkən məscidi ziyarət etmiş və görülən işlərlə yaxından tanış olmuşlar.

Məsciddə birinci mərhələdə nəzərdə tutulan bərpa işləri başa çatdırılıb, ikinci mərhələdə işlər keyfiyyətlə davam etdirilir. Məscidin daşları ilkin layihəyə uyğun olaraq dəyişdirilir. Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin gedişi ilə də tanış olublar. Xatırladaq ki, malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa edilib. Mehmandarovlar ailəsinə məxsus olmuş kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir. Malikanə kompleksi, ailə məscidi və ərazidəki bulaqda təmir-bərpa işlərinə 2021-ci ilin oktyabrından başlanılıb. İndiyədək evin və məscidin dam örtükləri orijinala uyğun quraşdırılıb, tavanlar bərpa olunub və rənglənib, qapı və pəncərələr qoyulub. Dağılmış divar bərpa edilib, zədəli divarda bərkitmə işləri aparılıb.Qeyd edək ki, Vaqifin məqbərəsi artıq bərpa edilib. Ermənilər tərəfindən güllləbaran edilmiş dahi şəxsiyyətlərimiz - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri əzəli torpağımıza gətirildi. Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu.

Onu da vurğulayaq ki, Heydər Əliyev Fondu tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Odur ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə yeni layihəyə başlayıb. Ölkəmizin zəngin irsinin mühafizəsi bundan sonra da yüksək səviyyədə təmin ediləcək, o cümlədən işğaldan azad olunmuş ərazilərdəki abidələrin bərpası, təmiri və yenidən qurulması işləri həyata keçiriləcəkdir.

***Zümrüd BAYRAMOVA***

# Yeni Azərbaycan Partiyası - 30

**Noyabrın 14-də AMEA-nın Rəyasət Heyətində Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr edilmiş "Yeni Azərbaycan Partiyası: Heydər Əliyevdən İlham Əliyevə" mövzusunda elmi konfrans keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

## "Yeni Azərbaycan Partiyası: Heydər Əliyevdən İlham Əliyevə"







## AMEA-da Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr edilmiş elmi konfrans keçirilib

Konfransda AMEA-nın prezidenti akademik İsa Həbibbəyli "Yeni Azərbaycan Partiyası: Heydər Əliyevdən İlham Əliyevə" mövzusunda məruzə ilə çıxış edib. Akademik bildirib ki, ötən əsrin 90-cı illərinin əvvəlində ölkəmizdə ictimai-siyasi və sosial-iqtisadi vəziyyətin ağır olması, siyasi sabitliyin təmin edilməməsi nəticəsində yaranmış xaos və anarxiya Azərbaycanı müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Həmin vaxt ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında geniş quruculuq işləri həyata keçirdiyini xatırladan akademik belə bir vaxtda xalqımızın 91 nəfər ziyalısının "Azərbaycan Sizin sözünüzü gözləyir" sərlövhəli başlıqla 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Ulu Öndərə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etdiklərini bildirib. Qeyd edib ki, 1992-ci il oktyabrın 16-da Ümummilli Lider "Yeni, müstəqil Azərbaycan uğrunda" sərlövhəli məqalə ilə ziyalıların müraciətinə müsbət cavab verib və 1992-ci il noyabrın 21-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında 550 nəfərin iştirakı ilə Yeni Azərbaycan Partiyası yaradılıb, dünya miqyaslı siyasətçi, Siyasi Büronu fəth etmiş böyük təcrübəyə malik Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilib.

Ulu Öndərin Yeni Azərbaycan Partiyasının sədri seçildikdən sonra ideologiya işlərinə xüsusi diqqət yetirdiyini deyən İsa Həbibbəyli dahi liderin azərbaycançılıq konsepsiyasını irəli sürdüyünü, demokratik prinsipləri əsas götürərək partiyanın nizamnaməsinə ciddi əməl etdiyini, nəhayət, 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçildiyini diqqətə çatdırıb.

Partiyanın inkişafında və sıralarının genişlənməsində Prezident İlham Əliyevin müstəsna rolu olduğunu deyən akademik İsa Həbibbəyli 1999-cu il dekabrın 20-21-də Yeni Azərbaycan Partiyasının I Qurultayında dahi liderin davamçısının partiya sədrinin müavini seçilməsi ilə gənclərin YAP-a axın etdiyini, nəticədə yeniləşmə prosesinə təkan verdiyini söyləyib. Vurğulayıb ki, İlham Əliyev 2001-ci ildə sədrin birinci müavini, 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti, 2005-ci ildə isə YAP-ın III Qurultayında partiyanın rəsmi sədri seçilib və beləliklə, ölkəmizdə siyasi varislik təmin olunub: "Prezident İlham Əliyevin ölkəmizə və Yeni Azərbaycan Partiyasına rəhbərlik etməsilə Azərbaycanın tarixində yeni era başladı. Bu mərhələ Heydər Əliyev epoxasının İlham Əliyev erası kimi qiymətləndirilməlidir. Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının tarixində yeniləşmə, inkişaf və intibah mərhələsidir. Azərbaycan cəmiyyətinin bütün sahələrində YAP-ın rolunu, xidmətlərini görməmək mümkün deyil. Məhz Ulu Öndər tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən azərbaycançılıq ideologiyası gənc nəslin vətənpərvər ruhda yetişdirilməsində mühüm rol oynadı və nəticədə yeni nəsil Vətən müharibəsindəki tarixi Qələbə ilə Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Sevindirici haldır ki, Yeni Azərbaycan Partiyasının 30 illiyini "Heydər Əliyev İli" ərəfəsində qeyd edirik".

YAP sədrinin birinci müavini Mehriban xanım Əliyevanın da partiyanın inkişafında müstəsna xidmətlərindən danışan akademik İsa Həbibbəyli Birinci vitse-prezidentin ölkəmizin ictimai-siyasi həyatında, sosial-mədəni proqramların həyata keçirilməsində mühüm rol oynadığını söyləyib.

Partiyanın yaranması mərhələsində Azərbaycan alimlərinin roluna toxunan akademik məşhur "91-lər"in sırasında AMEA əməkdaşlarının da olduğunu, həmçinin həmin dövrdə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda fəaliyyət göstərən "Əlincə cəmiyyəti"nin əksər üzvlərinin YAP-ın təşkilatlanmasına töhfə verdiklərini bildirib.

AMEA-dakı YAP ərazi partiya təşkilatlarının fəaliyyətindən də söz açan akademik vurğulayıb ki, əgər 2013-cü ildə akademiyanın 41 təşkilatından yalnız 9-da özək təşkilat var idisə, bu gün AMEA-nın bütün elmi müəssisə və təşkilatlarında ilk ərazi partiya təşkilatları, onların sədrləri və üzvləri fəaliyyət göstərir, onların sayı hər gün genişlənir: "Akademiyada YAP ərazi partiya təşkilatlarının fəaliyyətində akademiklər, müxbir üzvlər, elmlər və fəlsəfə doktorları, elmi və texniki işçilər ideoloji işlərdə yaxından iştirak edirlər".

AMEA rəhbəri qeyd edib ki, Azərbaycan alimləri dövlətimizin başçısının apardığı daxili və xarici siyasəti yekdilliklə bəyənir, Prezidentin bütün fəaliyyətini ürəkdən dəstəkləyirlər.





Sonra YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxış edib. Tədbir iştirakçılarını bu günlərdə qeyd etdiyimiz Zəfər bayramı və Dövlət Bayrağı Günü ilə əlaqədar təbrik edən Tahir Budaqov bu gün dünyada müstəqil, nüfuzlu, qüdrətli və qalib ölkə kimi tanınan Azərbaycanın hazırkı intibah mərhələsinə asanlıqla çatmadığını deyib: ”Müstəqillik




dövrünün əsas hadisə və proseslərinə nəzər saldıqda görürük ki, Azərbaycan xalqı və dövləti üçün taleyüklü məsələlərin həlli məhz fenomenal lider amili, onun milli-mənəvi dəyərlərə və zamanın tələblərinə əsaslanan titanik fəaliyyəti, qətiyyətli və uzaqgörən siyasəti, xalq-lider birliyi sayəsində mümkün olmuşdur. Bu kontekstdə ölkəmizin gələcək taleyini, perspektivlərini müəyyənləşdirən fövqəladə və əlamətdar hadisələrdən biri məhz Yeni Azərbaycan Partiyasının yaradılmasıdır”.

Tahir Budaqov qeyd edib ki, ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəlində həm SSRİ miqyasında, həm də respublika səviyyəsində baş verən hadisələr Azərbaycanın olduqca mürəkkəb vəziyyətlə qarşılaşmasına səbəb olmuşdu. Respublikada ictimai-siyasi böhranın, iqtisadi tənəzzülün, vətəndaş qarşıdurmasının hökm sürməsi, ölkənin faktiki olaraq beynəlxalq izolyasiya vəziyyətinə düşməsi, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və bir sıra digər mənfi proses-





lər müstəqilliyin itirilməsi təhlükəsini yaratmışdı. Azərbaycanı belə bir vəziyyətdən, xaos və böhrandan xilas etməyin yeganə yolu vahid lider ətrafında milli birliyin təmin edilməsindən keçirdi.

”Xalqın inam və etimad ünvanı isə bəlli idi. Hər kəs ümidini zəngin dövlətçilik təcrübəsinə malik olan, fəaliyyətinin bütün dövrlərində Vətənin ali mənafeyini və milli maraqları rəhbər tutan liderə - dahi şəxsiyyət Heydər Əliyevə bağlamışdı.1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalı - onların arasında dövrün görkəmli elm adamları, Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri üstünlük təşkil edirdi - Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etdi. Heydər Əliyev həmin müraciətə cavab olaraq Yeni Azərbaycan Partiyasının yaradılmasına və partiyaya rəhbərlik etməyə razılıq verməklə bütün təhlükələrə rəğmən, öz həyatını belə riskə ataraq növbəti dəfə Azərbaycan naminə siyasi məsuliyyəti öz üzərinə götürdü. Beləliklə, 30 il əvvəl - 1992-ci il noyabrın 21-də xalqın iradəsi ilə güclü Lider ətrafında Yeni Azərbaycan Partiyasının yaradılması nəinki müstəqillik, hətta müasir dövlətçilik tariximizin həlledici anı və dönüş nöqtəsi oldu.

Yeni Azərbaycan Partiyası 1993-2003-cü illərdə Heydər Əliyevin rəhbərliyi və xalqın dəstəyi ilə ictimai-siyasi sabitliyin, iqtisadi inkişafın təmin olunması, dövlətçiliyin möhkəmləndirilməsi, milli maraqların qorunması, respublikanın beynəlxalq mövqeyinin gücləndirilməsi istiqamətində mühüm işlər gördü və tarixi nailiyyətlərə imza atdı. Ən əsası, xalqımızın ümummilli lideri




Heydər Əliyev siyasi varisliyi təmin etməklə, Azərbaycan dövlətini müstəqil, milli maraqlara və milli-mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasəti ilə zirvələrə daşıyacaq Lider yetişdirməklə dövlətçilik tariximizdə ən böyük xidmətlərindən birini göstərdi. İlham Əliyevin 2003-cü ildə Prezident, 2005-ci ildə isə Yeni Azərbaycan Partiyasının sədri seçilməsindən sonra həm partiyamızın həyatında, həm də Azərbaycanın inkişafında keyfiyyətcə yeni mərhələ başlandı. Həyata keçirilən məqsədyönlü siyasət Azərbaycanın qüdrətinin və beynəlxalq nüfuzunun artmasını, dünya siyasi arenasında mövqeyinin güclənməsini, milli həmrəyliyin möhkəmlənməsini təmin etdi. Ən əsası, Prezident, Müzəffər Ali Baş Komandan, partiyamızın sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazanaraq ərazi bütövlüyünün, tarixi ədalətin və xalqımızın milli qürurunun bərpasına nail oldu. Bu tarixi Zəfər nəticəsində həm ölkəmizin qarşısında, həm də bütövlükdə regionda yeni çağırışlar və reallıqlar yaranıb. Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası da öz fəaliyyətini məhz bu reallıqlar əsasında qurur. YAP-ın 2021-ci il martın 5-




də keçirilmiş VII qurultayında partiyamızın sədri, dövlətimizin başçısı İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi möhtəşəm Zəfərin siyasi-diplomatik müstəvidə möhkəmləndirilməsinə, Azərbaycanın postkonflikt dönəmində davamlı uğurlar əldə etməsinə yeni imkan, dayanıqlı və etibarlı zəmin yaradır. Partiyamız bütün imkanlarını səfərbər edərək yeni geosiyasi prioritetlərdən irəli gələn hədəflərin reallaşdırılmasına çalışır, məqsədyönlü fəaliyyəti ilə Azərbaycanın inkişafına mühüm töhfələr verir. Heç şübhəsiz, Azərbaycan Milli Elmlər Akademiyasında çalışan partiya fəallarının da üzərinə bu istiqamətdə mühüm vəzifə və məsuliyyət düşür. Danılmaz faktdır ki, Azərbaycan Milli Elmlər Akademiyasının nümayəndələri - qabaqcıl elm xadimləri, akademiklər Yeni Azərbaycan Partiyasının yaradılması və inkişafında mühüm rol oynayıblar. Bu,



AMEA-nın milli məsələlərdə və tarixi-siyasi məsuliyyət anlarında öz sözünü deyən ziyalılar ordusuna malik olduğunu bir daha təsdiqləyir. Bu gün tarixi ənənələrə və zəngin elmi təcrübəyə malik olan Azərbaycan Milli Elmlər Akademiyasının qurumlarında Yeni Azərbaycan Partiyasının özək təşkilatları fəaliyyət göstərir, elm və təhsil sahəsi ilə yanaşı, siyasət meydanında da öz sözünü demiş nüfuzlu alimlər partiyamızın sıralarında təmsil olunurlar. Yeni Azərbaycan Partiyasının üzvü olan elm xadimlərinin dövlətçilik, azərbaycançılıq, vətənpərvərlik prinsipləri əsasında fəaliyyət göstərmələri, üzərlərinə düşən vəzifələri vicdanla, ləyaqətlə və məsuliyyətlə yerinə yetirmələri müstəsna əhəmiyyətə malikdir. Şübhə yoxdur ki, 30 yaşını qeyd etdiyimiz YAP Azərbaycanın tərəqqisi naminə daim çalışacaq, ümumxalq partiyası kimi taleyüklü məsələlərin həllində və tarixi məsuliyyət anlarında hər zaman öz sözünü deyəcək, Azərbaycanın elm məbədi olan Milli Elmlər Akademiyasında çalışan YAP üzvləri də bu prosesdə fəal rol oynayacaqlar”, - deyə YAP sədrinin müavini bildirib.

Tahir Budaqov çıxışının sonunda tədbir iştirakçılarını təbrik edib: ”Çoxəsrlik dövlətçilik və müasir müstəqillik tariximizin ən əlamətdar hadisələrindən olan Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30-cu ildönümü münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edir, möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, partiyamızın sədri İlham Əliyevin ətrafında sıx birləşərək dövlətimizi və xalqımız naminə şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram”.



Tədbirdə YAP Veteranlar Şurasının üzvü, fizika elmləri doktoru, professor Şahlar Əsgərov ”Yeni Azərbaycan Partiyasının qızıl fondu: 91-lər hərəkatından Veteranlar Şurasınadək” və YAP İdarə Heyətinin üzvü, filologiya elmləri doktoru Elnarə Akimova ”Azərbaycançılıq ideologiyasının formalaşması və təbliğində Yeni Azərbaycan Partiyasının rolu” adlı məruzələrlə çıxış ediblər. Həmçinin YAP Veteranlar Şurasının üzvü, Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru AMEA-nın müxbir üzvü Misir Mərdanov çıxış edərək Yeni Azərbaycan Partiyasının yaranması və ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb.

Sonra YAP sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yekun nitqlə çıxış edib.

Sonda Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilmiş AMEA əməkdaşlarına üzvlük biletləri təqdim olunub. Tədbir boyu Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Konfransda AMEA Rəyasət Heyətinin üzvləri, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, AMEA-nın və əhatə etdiyi elmi müəssisə və təşkilatların YAP ərazi partiya təşkilatlarının nümayəndələri və KİV əməkdaşları iştirak ediblər.

# Yeni Azərbaycan Partiyası - 30

## YAP-ın bütün uğurlarının arxasında xalqın inamı və dəstəyi dayanır!

*Bölgələrdə Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbirlər keçirilib*

### Naftalan

Noyabrın 14-də Naftalan şəhər Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiramlarını bildiriblər. Şəhidlərin əziz xatirəsinə ucaldılmış Memorial Xatirə Kompleksi ziyarət olunub.

Tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ümummilli Liderin şərəfli ömür yolu, ölkəmizin tərəqqisi uğrunda göstərdiyi xidmətləri özündə əks etdirən foto-eksponatlara baxış keçiriblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad





edilib. Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbirdə YAP Naftalan şəhər təşkilatının sədri Rövlan Heydərov partiyanın yaranma tarixindən, keçdiyi şərəfli inkişaf yolundan danışıb. Bildirib ki, zamanın tələbi, xalqın istəyi ilə yaranan və qısa müddətdə ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının bütün uğurlarının arxasında xalqın inamı və bu inamdan irəli gələn dəstək dayanır.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov vurğulayıb ki, Yeni Azərbaycan Partiyasının yaradılması ilə Azərbaycanın xilasının, tərəqqi yoluna çıxmasının əsası qoyuldu. Azərbaycanın son illərdə qazandığı böyük nailiyyətlərin ulu öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlı olduğu qeyd edilib.

Milli Məclisin deputatı Anar Məmmədov çıxışında zamanın çətin sınaqlarından şərəflə çıxmış YAP-ın bu gün ölkəmizdə ən güclü və nüfuzlu siyasi qüvvəyə çevrildiyini deyib. Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP-ın dəyərlərinin yüksək səviyyədə qorunması və daha da inkişaf etdirilməsi nəticəsində partiya üzvlərinin sayının gündən-günə artmaqda olduğu diqqətə çatdırılıb.

YAP İdarə Heyətinin üzvü Bayram Aslanov yaradıcısı Ümummilli Lider olan Yeni Azərbaycan Partiyasının fəaliyyətində Heydər Əliyevin ideya və arzularının yaşadığını qeyd edib. Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycanın partiyanın Sədri, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə parlaq gələcəyə doğru daha da inamla irəliləyəcəyini bildirib.

Tədbirdə partiya veteranı Möhübbət Bədəlov, partiya fəalı Faiqə Ağayeva və Vətən müharibəsi iştirakçısı İsa İsayev partiyanın ötən 30 il ərzində keçdiyi şərəfli yola nəzər salıblar.

Tədbirin sonunda şəhərin ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri təqdim edilib.

### Xaçmaz

Noyabrın 14-də Xaçmaz şəhər Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30-cu ildönümü münasibətilə tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini və rayon Şəhidlər xiyabanını ziyarət ediblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə YAP Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Baladaşov Yeni Azərbaycan Partiyasının 30 il ərzində zəngin, şərəfli və məsuliyyətli yol qət etdiyini, öz siyasi xətti və fəaliyyəti ilə xalqın partiyasına çevrildiyini diqqətə çatdırıb. Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi zərurət, eyni zamanda gənc dövlətimizin gələcək taleyi üçün dönüş nöqtəsi olduğunu söyləyib. Vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin zəngin irsi əsasında və Prezident, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi altında dövlətimizin qüdrəti, beynəlxalq nüfuzu daha da artacaq.

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev çıxışında bildirib ki, ötən 30 ildə Yeni Azərbaycan Partiyasının keçdiyi yol, əldə etdiyi nailiyyətlər böyük quruculuq salnaməsidir. Bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışında qeyd edib ki, ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan YAP zəngin və şərəfli inkişaf yolu keçərək bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixi müvəffəqiyyətlər əldə edir. Xalqın sevgisini və dəstəyini qazanan partiya ölkədə sabitliyin təminatında avanqard rolunu oynayır. Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqların ifadəçisi olmasıdır.

YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən biri Sudeyf İmamverdiyev bildirib ki, xalqı arxasınca aparmağa qadir, insanlarda inam yarada biləcək siyasi partiyanın təsis olunmasına və həmin təşkilata dövlət idarəçiliyində böyük təcrübəsi olan şəxsiyyətin rəhbərlik etməsinə böyük ehtiyac yarandığı bir dövrdə Ulu Öndərin yüksək nüfuzu, xalqın ona böyük inam, etimadı və davamlı dəstəyi Yeni Azərbaycan Partiyasının ardıcıl uğurlar qazanmasını təmin edən əsas amil olub.

Tədbirdə Milli Məclisin deputatı Sevil Mikayılova Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, partiyanın ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanaraq ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməsindən, dövlətçiliyimizin möhkəmlənməsinə və Azərbaycanın dinamik inkişafına öz töhfələrini verməsindən, qazanılan parlaq Qələbədən ətraflı bəhs edib.

Sonra YAP Xaçmaz rayon təşkilatının ilk sədri Nadir Süleymanov, şəhid Kərəm Veyisovun anası Nərgiz Veyisova və Vətən müharibəsi qazisi Tariyel Didarov çıxış ediblər.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar, rayon təşkilatının on mininci üzvü şəhid Davud Hacıyevin anası Validə Hacıyevaya və partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

*Ardı Səh. 11*





# Yeni Azərbaycan Partiyası - 30

## YAP-ın bütün uğurlarının arxasında xalqın inamı və dəstəyi dayanır!

*Bölgələrdə Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbirlər keçirilib*

Əvvəli Səh.10

### Lənkəran

Noyabrın 14-də Yeni Azərbaycan Partiyasının (YAP) Lənkəran rayon təşkilatı tərəfindən Heydər Əliyev Mərkəzində partiyanın təsis edilməsinin 30 illiyi münasibətilə tədbir keçirilib.

Öncə rayon Şəhidlərin xiyabanı və Heydər Əliyev parkında Ümummilli Liderimizin abidəsi ziyarət olunub. Şəhidlərimizin və ulu öndər Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və Yeni Azərbaycan Partiyasının qurucusu, ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Sonra Yeni Azərbaycan Partiyasının şərəfli tarixini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev bildirib ki, Yeni Azərbaycan Partiyası 30 il öncə xalqımızın çətin sınaqlar və mürəkkəb problemlərlə üz-üzə qaldığı bir dövrdə yaranıb. Yeni Azərbaycan Partiyası xalqımızın milli maraqlarını ifadə edən avanqard siyasi qüvvəyə çevrilib. İqbal Əmənullayev YAP Lənkəran rayon təşkilatında 120 ərazi partiya təşkilatının işinin Yeni Azərbaycan Partiyasının Nizamnaməsinə, yerli təşkilatları haqqında əsasnamənin tələblərinə və Mərkəzi Aparatının tövsiyə və tapşırıqlarına uyğun olaraq qurulduğunu diqqətə çatdırıb.

Azərbaycan Respublikasının Baş nazirinin müavini, YAP Sədrinin müavini Əli Əhmədov bildirib ki, müasir müstəqil Azərbaycanın şanlı siyasi tarixinin mühüm səhifələrindən birini ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılması təşkil edir. Yeni Azərbaycan Partiyasının yaradılması ilə Azərbaycanın xilasının, tərəqqi yoluna çıxmasının əsası qoyuldu. Ulu öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi 30 illik şərəfli yolda ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynamaqla yanaşı, müasir dövrdə beynəlxalq aləmdə tanınan nüfuzlu partiyalar sırasında olması dahi şəxsiyyətin uzaqgörən, müdrik siyasətinin nəticəsidir. Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən böyük siyasi partiyası, gəncliyin güvənc yeridir: "Yeni Azərbaycan Partiyası Ulu Öndərimizin düşüncə və siyasi ideologiyasının əbədi məktəbi, yeniləşən və inkişaf edən qüdrətli Azərbaycan isə bu məktəbin yaratdığı xoşbəxt taleli məmləkətdir".

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Cavanşir Paşazadə çıxış edərək bildirib ki, partiyamızın fəaliyyətinin əsasında Heydər Əliyev ideyaları dayanır. YAP-ın Azərbaycan xalqının çətin sınaqlarla üz-üzə qaldığı bir dövrdə yarandığını xatırladan Cavanşir Paşazadə qeyd edib ki, həmin dövrdə Ulu Öndərin hakimiyyətə qayıdışı ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükələrinin qarşısı alındı.

Lənkəran Rayon İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov çıxışında qeyd edib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət, qəbul etdiyi dövlət proqramları, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrinin inkişafı ilə nəticələnmiş, Azərbaycan nəinki regionda, beynəlxalq səviyyədə qəbul edilən nüfuzlu, qüdrətli dövlətə çevrilmişdir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Lənkəran rayon təşkilatının veteranı Əlimərdan Əliyev, ərazi partiya təşkilatının üzvü Gülarə Abbasova, təşkilatın gənc fəalı Ülvi Tağızadə və Vətən müharibəsi iştirakçısı, müəllim Emin Quliyev çıxış edərək Yeni Azərbaycan Partiyasının yaradılmasının Azərbaycanın siyasi tarixinin ən parlaq səhifələrindən biri olduğunu bildiriblər.

Tədbirin sonunda Lənkəran şəhərinin ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.







### Sabirabad

Noyabrın 14-də Sabirabad rayon Mədəniyyət Mərkəzində Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini və rayon Şəhidlər xiyabanını ziyarət ediblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Yeni Azərbaycan Partiyasının 30 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov qalib Azərbaycanın bugünkü uğurlarının fonunda dünənimizə nəzər salaraq cəmiyyətin avanqard qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının yaradılmasını şərtləndirən amillərdən bəhs edib. 30 il əvvəl ölkənin siyasi həyatına Yeni Azərbaycan Partiyasının daxil olması tarixi zərurət idi. Yeni Azərbaycan Partiyası bu zərurətin siyasi ifadəsi kimi yaradıldı. Yeni Azərbaycan Partiyasının yarandığı 21 noyabr 1992-ci il Azərbaycan tarixində ən əlamətdar və unudulmaz təqvimlərdən biridir. Yeni Azərbaycan Partiyası Vətənin, dövlətin son dərəcə ən ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yaranıb və Azərbaycanı bugünkü inkişafa, qalibiyyətə gətirib çıxarıb. Yeni Azərbaycan Partiyası sübut edib ki, sağlam təməllər üzərində qurulmuş demokratik prinsiplərə söykənən partiyadır.

Ötən 30 ildə Yeni Azərbaycan Partiyasının keçdiyi yolun, əldə etdiyi nailiyyətlərin böyük quruculuq salnaməsi olduğunu diqqətə çatdıran Sabirabad Rayon İcra Hakimiyyəti başçısının I-ci müavini Həsən Həsənov vurğulayıb ki, bu gün sürətlə inkişaf edən müstəqil dövlətimizi uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın, vətənin mənafeyi naminə səy göstərir.

YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən biri Məmməd Nəsirov bildirib ki, ötən 30 il həm partiyanın, həm də ölkəmizin həyatında mühüm hadisələrlə zəngindir. Bu uğurların zirvəsində dayanan tarixi Zəfərimizi şərtləndirən amillər 30 ilin təhlili fonunda aydın şəkildə görünür. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursa sadiqliyini atdığı hər addımında təsdiqləyən Prezident İlham Əliyevin rəhbərliyi ilə YAP yeni-yeni hədəflərə doğru inamla irəliləyir.

YAP İdarə Heyətinin üzvü, professor Tofiq Cahangirov deyib ki, Yeni Azərbaycan Partiyası yarandığı gündən xalqda sabaha inam yaradıb, qarşıya qoyduğu vəzifələri uğurla həyata keçirərək ölkənin inkişafına, tərəqqisinə yol açıb. Ulu Öndərin layiqli davamçısı, Prezident, Partiyamızın Sədri İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə görülən möhtəşəm işlərdə YAP-ın misilsiz xidmətləri var. Şərəfli inkişaf yolu keçən partiya müstəqillik dövründə ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayır.

Ardı Səh. 12

# Yeni Azərbaycan Partiyası - 30






## YAP-ın bütün uğurlarının arxasında xalqın inamı və dəstəyi dayanır!

*Bölgələrdə Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyinə həsr olunmuş tədbirlər keçirilib*

Əvvəli Səh.11

Tədbirdə Sosialist Əməyi Qəhrəmanı, 1-ci dərəcəli "Əmək" ordeni mükafatçısı, Prezident təqaüdçüsü Fatma Hüseynova, partiya veteranı, ərazi partiya təşkilatı sədri Bəylər Heydərov, Milli Qəhrəman, şəhid Murad Mirzəyevin atası Telman Mirzəyev Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan danışıblar. Qeyd ediblər ki, qazanılan nailiyyətlər Azərbaycanın qüdrətinin daha da artmasını şərtləndirir. Sonda rayonun ictimai-siyasi həyatında fərqlənən bir qrup partiya fəalına fəxri fərmanlar, eləcə də partiya sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqəsi təqdim edilib.

---

# YENİ AZƏRBAYCAN PARTİYASI: DÜNƏN, BU GÜN VƏ SABAH



**Ramin Məmmədov**
*Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı*

TƏHLİL

Cəmiyyətin və dövlətin həyatında siyasi partiyaların rolunu qiymətləndirməyin ən mükəmməl meyarı seçkilərdir. Bu mənada, Yeni Azərbaycan Partiyasının indiyə qədər seçkilərdə əldə etdiyi nəticələr onun Azərbaycan ictimai təfəkküründə yeri və rolu barədə aydın təsəvvür yaradır. Lakin əlbəttə ki, seçkilərin nəticələri partiyanın fəaliyyətinə və əldə etdiyi nəticələrin miqyasına qiymət vermək üçün əsas alət olsa da, ümumilikdə siyasi partiyanın tarixi proseslərdə yerini daha dəqiq qiymətləndirməyə imkan verən başqa bir ölçü vahidi də var - zaman. Yeni Azərbaycan Partiyasının fəaliyyətinə, dövlətimizin və cəmiyyətimizin inkişafında roluna qiymət verərkən həm də onun mübarizələrdən keçmiş tarixinə, hakim siyasi təşkilata çevrildiyi gündən indiyə qədər ölkənin əldə etdiyi uğurlara nəzərə salmaq zərurəti meydana çıxır. YAP ölkədə siyasi kataklizmlərin dərinləşdiyi, iqtisadiyyat, daxili ictimai münasibətlər, beynəlxalq əlaqələr, Ermənistanın işğalçı siyasəti nəticəsində yaranmış acı reallıqlar fonunda təsis olundu. "Qoy, ədalət zəfər çalsın!" şüarı bütün sferalarda praktik təzahürünə ehtiyac duyulan ümummilli bir amalın məzmununu ifadə edirdi. Böyük dövlət adamı Heydər Əliyevin xarizması, onun şəxsiyyətinə dərin ictimai etimad YAP-ın qısa müddətdə kütləvi siyasi təşkilata çevrilməsini şərtləndirən ən başlıca amil idi. Azərbaycan xalqı YAP-ı sıradan bir siyasi institut kimi deyil, ümummilli lider Heydər Əliyevin ideya və təşəbbüslərini gerçəkləşdirməkdə vacib rol oynaya biləcək birlik modeli kimi qəbul etmişdi. "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" kəlamı partiyanın fəaliyyətinin bütün fəlsəfəsini, siyasi münasibətlər sistemində tutduğu mövqenin mahiyyətini ifadə edirdi. Ötən 30 il ərzində Azərbaycanda baş verən bütün pozitiv dəyişikliklər YAP-ın qurucusu ümummilli lider Heydər Əliyevin və onun siyasi varisi Prezident İlham Əliyevin adı ilə bağlıdır. 30 il bundan ərazisinin bir hissəsi işğal edilən, ağır iqtisadi və sosial tənəzzül yaşayan Azərbaycan bu gün Cənubi Qafqazın ən güclü dövləti kimi qəbul olunur. Ulu öndərin hakimiyyətə gəlişi Azərbaycan xalqının milli şüurunda inqilabi dəyişikliklərə səbəb oldu. Milli özünüdərk, müstəqillik ideallarına əsaslanan siyasi təfəkkür tərzi, gələcəyə qəti inam dövlət və xalq birliyinin sarsılmazlığını təmin edən əsas amillərə çevrildi. Prezident İlham Əliyev bu birliyi daha da möhkəmləndirərək onu ümummilli hədəfə - Azərbaycan torpaqlarının işğaldan azad olunması ideyasına istiqamətləndirdi. 2020-ci ilin Vətən müharibəsinin gedişi və nəticələri bu siyasətin kifayət qədər düşünülmüş və dəqiq hesablanmış bir strategiyaya əsaslandığını sübut etdi.

Yeni Azərbaycan Partiyasının 5 mart 2021-ci il tarixində VII qurultayı Vətən müharibəsindən sonrakı dövrdə Cənubi Qafqazda yaranmış yeni reallıqlara, yeni çağırışlara uyğunlaşmaq, daha mükəmməl və effektiv fəaliyyət mexanizmi müəyyənləşdirmək məqsədinə xidmət edirdi. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev qurultaydakı çıxışında partiyadakı dəyişikliklərin zəruriliyini xüsusi vurğulamışdı: "Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar, ümumi işimizə öz töhfəsini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın". Bu gün əminliklə demək olar ki, qurultaydan keçən dövr ərzində partiyanın fəaliyyətində, beynəlxalq əlaqələrində ciddi keyfiyyət dəyişikliyi baş verib. Qurultaydan sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Sədrin birinci müavini təyin olunması partiyanın tarixində yeni bir dövrün başlandığını göstərən hadisələrdən biri kimi qiymətləndirilə bilər. Qalib ölkənin hakim partiyası kimi, YAP qloballaşan dünyanın reallıqlarına, beynəlxalq münasibətlər sistemində baş verən mürəkkəb dəyişikliklərə çevik reaksiya verməyi bacaran, cəmiyyətin gözləntilərini dəqiq qiymətləndirmək imkanlarına malik siyasi təşkilat kimi daha böyük uğurlara imza atmaq imkanına malikdir. İndi siyasi partiya haqqında ənənəvi nəzəriyyələrdə öz əksini tapmış təfsirlər müasir dövrün çağırışlarını tam şəkildə ifadə etmir. İctimai təfəkkür siyasiləşdiyindən ideoloji postulatlar əvvəlki aktuallığını qismən də olsa itirir. Cəmiyyət siyasi partiyalardan təkcə ümummilli mənafelərlə bağlı məsələlərdə deyil, həm də qlobal, bəzən isə hətta ayrı-ayrı sosial qrup və fərdlərin problemlərinin həlli ilə bağlı təkliflər, təşəbbüslər gözləyir. Bu baxımdan, YAP-da həyata keçirilən islahatlar cəmiyyətin gözləntilərinə, eyni zamanda, müasir dövrün çağırışlarına uyğunlaşmağı hədəf götürüb. 30 illik tarixə malik YAP Azərbaycanda ictimai-siyasi proseslərin mərkəzində dayanan əsas siyasi institut olaraq ictimai rəyə digər partiyalarla müqayisədə daha böyük təsir imkanlarına malikdir. Partiyanın tarixi əslində ölkənin əldə etdiyi nailiyyətlər tarixi ilə sinxron təşkil edir. YAP-ı başqa siyasi qüvvələrdən, xüsusilə müxalifət partiyalarından fərqləndirən ən mühüm keyfiyyətlərdən biri onun öz fəaliyyətini rəqiblərinin uğur və uğursuzluqları ilə müqayisə formulu əsasında qurmamasıdır. YAP öz siyasi xətti, gələcəyə dair aydın və konkret strategiyası olan, xalqın tarixində müstəsna rol oynamış iki tarixi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin ideyaları və Prezident İlham Əliyevin liderliyi sayəsində mükəmməl siyasi fəaliyyət modeli qurmağa müvəffəq olmuş güclü bir təşkilatdır. Bu gün işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, Cənubi Qafqazda sülh və əməkdaşlıq mühitinin yaradılması istiqamətində təşəbbüslərin xüsusi aktuallıq kəsb etdiyi dövrdə YAP ölkədə siyasi dialoqun dərinləşməsi prosesində aparıcı rol oynayır. Yeni tarixi mərhələdə partiyanın üzərinə düşən əsas missiya Aərbaycanda ötən müddət ərzində əldə olunmuş milli birlik və siyasi həmrəyliyin daha da möhkəmləndirilməsinə töhfə verməkdir. Keçdiyi yol və bu gün partiyanın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar YAP-ın bu tarixi missiyanın da öhdəsindən uğurla gələcəyini söyləməyə əsas verir.

# Paşinyandan növbəti SİYASİ HƏYASIZLIQ







Azərbaycanın öz haqq işi, öz haqları uğrunda apardığı mübarizəsi, öz torpaqlarının, ermənilər tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarının geri qaytarılması uğrunda mücadiləsi tarixi ədalətin bərpası ilə, torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələndi və bu, məntiqi nəticə olaraq bütün dünyada qəbul edilməlidir. Sözsüz ki, bu nəticə erməniləri və ermənipərəst qüvvələri qəti şəkildə qane etməyə bilər, amma bu, onlar arasında heç kimə əsas, yaxud da haqq verə bilməz ki, Azərbaycan adlı qüdrətli bir ölkənin əleyhinə sayıqlasın. Xüsusən də, danışıqlar üçün öz havadarlarına yalvararaq kömək istəyən və ölkəsinin məğlubiyyətinə rəsmi şəkildə, özü də tələsik halda imza atan, bununla da daha böyük faciəyədən yaxa qurtardığına sevinən birinin, erməni baş nazirinin, Nikol Paşinyanın Ermənistanın ictimai televiziyasına verdiyi müsahibəsi zamanı ölkəmiz əleyhinə sayıqlaması isə siyasi həyasızlıqdır.

Ermənistan tərəfi yaxşı bilir ki, Azərbaycan öz torpaqları uğrunda mübarizə aparıb və qalib gəlib. Başda elə baş nazir Paşinyan olmaqla bütün ermənilər bilirlər ki, Azərbaycan özünə məxsus olanı geri qaytarıb və tarixi ədaləti bərpa edib, hansıki buna mane olmağa erməni cəmiyyətinin öz havadarlarının köməyi ilə belə gücü çatmayıb. Ermənilər bilirlər ki, hər müstəvidə, özü də rüsvayçı şəkildə məğlubiyyətə uğrayıblar və bu damğa alınlarında bütün mövcudluqları dövründə qalacaq. Bilirlər ki, qələbəmizə, Zəfərimizə kölgə salmağa belə onların imkanı, gücü çatmaz, bu mümkünsüzdür və Azərbaycan tərəfi, bu ölkənin Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev istənilən platformada keçirilən görüşdə qalib olaraq iştirak edir və bundan sonra da belə olacaq. Ölkəmizin qələbəsinə rəsmi şəkildə imza atan dövlət başçımızın bütün görüşlərdə ifadə etdikləri də ermənilərə verilən mesaj, hətta deyərdik ki, dərsdir, amma görünür bunu başa düşməkdə ermənilərin baş naziri belə çətinlik çəkir, əks halda, sayıqlamalar etməzdi. Küçə nümayişlərinin köməyi ilə avantüristcəsinə hakimiyyəti qamarlayan səriştəsiz biri, yəni Paşinyan görünür anlamır ki, belə sayıqlamaları ilə siyasi həyasızlıq edir, çünki nəticə çıxarmaq əvəzinə yenə də avantüraya əl atır.

İşğalçı ölkənin ictimai televiziyasına müsahibəsində Nikol Paşinyan yenə də artıq keçmişdə qalan Qarabağ münaqişəsinin bitmədiyi fikrini formalaşdırmağa çalışırsa, buna nə ad verməк olar? "Əgər, Azərbaycan Prezidentinin dediyi kimi, Qarabağ münaqişəsi bitibsə, Qarabağdakı ermənilər niyə bunu hiss etmirlər", deyən erməni baş nazirin yenə də siyasi həyasızlıq etdiyi ortaya çıxır. Nikol bilmirmi ki, bu münaqişənin bitdiyini Qarabağda yaşayan ermənilərə hiss etməyə imkan verməyən elə Ermənistanın özüdür? Bilmirmi ki, sərhədlərin delimitasiyasını və demarkasiyasını, bununla da sülh müqaviləsini ləngidən də məhz Ermənistandır? Bilir, özü də buna rəvac verən elə özüdür. O halda bu siyasi həyasızlıq nəyə lazımdır? Axı belə həyasızlıqlar onu da, ölkəsini də xilas edən deyil və hansısa dəyişikliyə ümid etməsi də ağılsızlıqdır.

Bu zamana qədər Nikolun hansı fikirlər səsləndirdiyi, özü də biri-birinə zidd olan fikirlər ifadə etdiyi təkcə ermənilərə deyil, bütün dünya ictimaiyyətinə bəllidir. Bütün dünya bu avantüristin ziddiyyətli fikirləri və mövqeyi ilə tanışdır. Hələ hakimiyyət kürsüsünü qamarlamazdan öncə Qarabağın Azərbaycan ərazisi olduğunu Ermənistan Parlamentində səsləndirən Paşinyan özü deyildimi? Sonra da hakimiyyəti ələ keçirdikdən sonra daxili auditoriyaya hesablanan çıxışlarında, müxtəlif platformalarda öz sözünün əksini söyləməsi, gedib bir zamanlar işğal altında olan torpaqlarda sayıqlaması, sərxoş olub və əl açıb oynaması yadından çıxıbmı Nikolun? "Şuşa ermənilərə məxsus idisə, niyə 30 il ərzində həmin şəhərdə bir dənə də tikili tikilməyib, yalnız dağıdılıb və Azərbaycanın bu torpaqları abadlaşdırdması bunun əksini deməyə əsas verir", deyən də Paşinyan idi. Bəlkə erməni baş nazirə xatırladılmalıdır ki, o dəfələrlə bir birinə zidd fikirlər səsləndirib? Yaxud, onun vaxtaşırı sayıqladığını, özü də bir-birinin əksinə söz söylədiyini erməni cəmiyyəti bilmir? Bilir, özü də lap yaxşı bilir. O zaman bu avantüristin sonuncu dəfə ölkəsinin ictimai televiziyasına verdiyi müsahibəsi zamanı Azərbaycan əleyhinə, xüsusən də Qarabağla bağlı söylədiklərini siyasi həyasızlıq adlandırmaq tam yerinə düşür.

Nikol Paşinyanın müharibə bitdikdən sonra üzündəki ifadə belə dəfələrlə dəyişib. Bütün dünya bunun beynəlxalq platformalarda keçirilən görüşlər zamanı çox şahidi olub. Hər bir görüşdə onun sifətində məğlubiyyətin, rüsvayçılığın ifadəsi dominantlıq təşkil etdiyi də yaddaşlardan silinən deyil. Hətta sonuncu dəfə Soçi görüşündə məzlum bir obrazda olduğunu da hamı gördü. Bu, əslində məğlubiyyətinin təzahürü idi və hakimiyyət üçün səriştəsiz birinin sifətində təzahür etməsi də gözlənilən hesab olunurdu ki, bunu başa düşmək çətin deyil. Amma, beynəlxalq görüşdə hamının gözü qarşısında yazıq bir görünüşdə, başını aşağı sallayan birinin sonradan yenə də Qarabağ barədə sayıqlaması növbəti həyasızlıqdır, özü də siyasi həyasızlıq.

"Bir sualın cavabını təkcə Ermənistan deyil, həm də beynəlxalq ictimaiyyət almalıdır ki, Qarabağ sakinləri niyə həmişə təhlükə altındadır?" deyən Paşinyan hansı təhlükədən danışır və bu təhlükəni bundan sonra onların özləri yaratdığının fərqində deyilmi? Fərqində deyilmi ki, belə həyasızlıqla ifadə səsləndirməsi həqiqətən təhlükə yaradır? Qarabağ sakinləri qanunlarımızı qəbul etdikləri təqdirdə onların Azərbaycanın müdafiəsində, mühafizəsində olduqlarına görə təhlükə altındadırlar, yoxsa Paşinyanın həyasızlıqla səsləndirdiyi fikirlər və bununla da məsələni qızışdırdığına görə? Həmin ərazilərdə gedən abadlıq-quruculuq işləri aparıldığına görə Qarabağ sakinləri təhlükə altında olmalıdır, yoxsa həyasızlıqla işlənən bu axmaq fikirlər səbəbindən?

"Biz Qarabağ məsələsinin həll olunmasının əleyhinə deyilik", deyərkən belə Nikol siyasi həyasızlıq edir. Axı dolayısı ilə bu məsələnin guya hələ də həll olunmadığı fikrini formalaşdırmağa çalışır və qıcıq doğuran ifadələr səsləndirir ki, bu da nəticə etibarı ilə həyasızlıqdan, avantüradan başqa bir şey deyil. Sülh danışıqlarına hazırlaşılmalı, bu danışıqlar gerçəkləşdirilməli halda niyə nifaq toxumu səpməyə çalışır və bu tərzi nəyə hesablana bilər? "Əleyhinə deyilik" deyən erməni baş nazir ilk növbədə elə sülhün, Qarabağdakı ermənilərin təhlükəsizliyinin əleyhinə danışır və onlar üçün təhlükəni məhz təxribatlara təhrikedici ifadələri ilə yaradır.

"Bütün bunlar Qarabağdakı erməni əsilli əhalinin genosidi üçündür", deməklə isə Paşinyan görünməmiş həyasızlıq edir. Əvvələ ona görə ki, Qarabağdakı erməniləri elə özü qorxudur, onlara guya təhlükədə olduqlarını çatdırır, onları qızışdırır və bunun fonunda da utanmadan onların təhlükəsizliyi barədə danışır. Digər tərəfdən də, iki il ərzində Qarabağın erməni əsilli əhalisi naminə bircə dənə də addım atmayan bir baş nazir nə üzlə onların təhlükəsi barədə fikir səsləndirir? Paşinyan hansı vədinə əməl edib ki, təhlükəsizlik barədə hansısa iddiada olsun? Qarabağdakı erməni əsilli əhalinin təhlükəsizliyi barədə düşünən bir baş nazir ilk növbədə həmin əhali üçün əlindən gələni edərdi. Ən azından danışıqlara uyğun şəkildə razılaşmalara əməl edərdi, bu danışıqların ruhuna uyğun danışardı ki, sülh istiqamətində addım atılsın. Amma təkcə biz yox, bütün dünya görür ki, Nikol və onun hakimiyyət komandası bunun əksini edir, hələ bir üstəlik həyasızlıqla uyğunsuz, həqiqətdən uzaq ifadələr səsləndirir.

Birincisi, Azərbaycan məhz Ermənistandan fərqli olaraq genosid törədən bir dövlət, xalqımız da hansısa xalqa soyqırım yaşadan xalq deyil və öz mövcudluğu dövründə heç bir genosidə, heç bir soyqırıma imza atmayıb. Halbuki, ötən əsrin əvvəllərində 31 mart qırğınına imza atan ermənilər həmin əsrin sonunda Xocalı soyqırımı kimi insanlıq dramını da törətdilər. Qonşu dövlətin torpaqlarına təcavüzkarcasına soxulan erməni silahlıları isə qoca, yaşlı, uşaq, körpə, hətta hamilə qadın demədən kütləvi şəkildə insanların qırğınını törətməklə bu xislətə özlərinin sahib olduqlarını göstərdilər. Körpə uşaqların, qocaların, hamilə qadınların cəsədləri üzərində təhqiramiz hərəkətlər etmələri də foto və video materiallarda öz təsdiqini tapır. Bu vəhşilikləri törədən bir toplumun nümayəndəsi, buna rəvac verən bir ölkənin baş naziri hansı üzlə Azərbaycanın genosid törədəcəyini söyləyir və bunu söyləmək üçün nə qədər həyasız olmaq lazımdır? Paşinyan bilmirmi ki, genosidi törədən eyni ilə öz erməniləri kimi, özgə torpaqlarına soxulub orada qırğın törədir?

Əvvəla Qarabağ Azərbaycan torpağıdır və öz torpağında heç bir xalq genosid törətməz, üstəlik Azərbaycan xalqı kimi sülhsevər bir xalqın bunu edəcəyini iddia etmək həyasızlığın həddsizlik dərəcəsidir. Digər tərəfdən, həmin ərazilərdə yaşayan erməniləri hədəfə almaq üçün Azərbaycanın məhz müharibə dövründə şansı yox idimi ki, bunu indi etməyi planlaşdırsın və erməni baş naziri bu iddianı hansı ağılla ortaya atır? Əgər 44 günlük müharibə dönəmində, döyüş ermənilərin məğlubiyyəti ilə başa çatdığı zaman bunu etmək mümkün olduğu halda, Azərbaycan bunu etmədisə, deməli, Nikolun dedikləri cəfəngiyyatdır və bunun cəfəngiyyat olduğunu erməniləri özləri də yaxşı bilirlər. Daha doğrusu, ermənilər özləri də bilirlər ki, bu iddiaları, bu fikirləri ilə baş nazirləri həyasızlıq həddini aşır. Əslində, Azərbaycanın öz ərazisində, Qarabağda yaşayan ermənilər üçün nə isə etmək, onları həmin ərazilərdən uzaqlaşdırmaq, qovmaq, deporttasiya etmək, ümumiyyətlə, etnik təmizləmə siyasəti yürütmək niyyəti olsaydı, 44 günlük müharibə bitdiyi zaman belə onların həmin ərazilərdə yerləşməsinə niyə imkan verirdi? Bütün bunlar, bu suallar, bu məntiqi ardıcıllıq və yanaşma təsdiq edir ki, Azərbaycan barədə erməni baş nazirinin iddiaları siyasi həyasızlıqdır və sülh gündəliyi ilə ziddiyyət təşkil r.

**İnam Hacıyev**

TƏRS BAXIŞ + AKTUAL

# Rusiyanın Vardanyan layihəsi: hədəfdə olan separatçı Qarabağda rahat gəzir (?!)

**Qaldı ki, Ruben Vardanyanın Nikol Paşinyanın devrilməsi yönündə "siyasi fiqur" olaraq Azərbaycan ərazilərinə "desant" qismində atılmasına, çox yəqin və ümidvarıq ki, Kremldəki məlum, yaxud naməlum adamlar da Azərbaycan ərazilərinin Rusiyanın qaranlıq dairələri üçün hər hansı bir "platsdarm", yaxud "tramplin" rolu olmayacağını anlayacaqlar və belə bir kirli siyasi oyunbazlıqlarına son qoymalı olacaqlar**



Rusiya vətəndaşlığından imtina edən və Qarabağa gələn erməni milyarderi Ruben Vardanyan son günlər Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti yerləşdiyi ərazilərində fəallığı ilə seçilməkdədir. Və yalnız fəallığı ilə deyil, həm də ərazilərimizə qarşı separat xarakterli bəyanat və açıqlamaları, plan və məqsədlərini açıqlaması ilə də...

Kreml projesinin bir ucunun məhz Azərbaycanın suveren əraziləri istifadə olunmaqla həyata keçirilməsi cəhdləri özü-özlüyündə bir sıra böyük suallar doğurmaqdadır

Artıq onun Rusiyanın layihəsi olması və bu layihənin Ermənistandakı mövcud Paşinyan iqtidarının yıxılması yönündə hazırlandığı da kimsəyə sirr deyil. Lakin sözügedən Kreml projesinin bir ucunun məhz Azərbaycanın suveren əraziləri istifadə olunmaqla həyata keçirilməsi cəhdləri özü-özlüyündə bir sıra böyük suallar doğurmaqdadır. Məsələ ondadır ki, bu dəfə Xocalıda görünən Vardanyanın "Artsaxa investisiyalar davam edəcək. Mən Artsaxa gəlib sərmayə qoymağa hazır olan hər kəsi dəstəkləyəcəm..." ifadələri fonunda bu qədər özünə güvənən şəkildə fikirlər səsləndirməsi reallıqda bıçağın sümüyə dirənməsi faktorunu dağa çox qabartmağa başlayıb. Bu separatçı ünsürün hər an Azərbaycan Ordusunun hədəfi altında olmasına baxmayaraq onun bu qədər inamlı fikirlər səsləndirməsi artıq qırmızı xəttin keçilməsi mənasını da daşıyır.

Sözügedən məsələni daha geniş təfərrüatlarla açıqlamaq üçün qeyd edək ki, Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonu ərazisində yeni "təyin olunmuş" sözdə "dövlət naziri", rusiyalı milyarder Ruben Vardanyan bu günlərdə işğal altındakı Xocalı rayonunun Daşbulaq kəndinə gedib və orada görülən işlərlə tanış olub. Özünün Facebook səhifəsində məlumat verən separatçı yazır: "Artsax(Qarabağ) həqiqətən möcüzələrlə doludur. Əsgəran (Xocalı) rayonunun "Astqaşen" (Daşbulaq) icması nadir təbii sərvətləri və münbit torpağı ilə həmin möcüzələrdən biridir. Hətta müharibədən sonra da insanlar öz gələcəklərini Artsaxda, öz torpaqlarında qurmağa davam edirlər. Bir neçə gün əvvəl həyat yoldaşım Veronika və kiçik oğlumuz Georgi ilə "Astqaşendə" idik. Yeni salınmış xurma bağına indi mənim komandamda olan sahibi Arman Akopcanyanın dəvəti ilə baş çəkdik. 20 hektarlıq bağ bütün müasir aqrotexniki standartlara uyğun əkilib becərilmiş, damcı suvarma ilə və s. ilə təmin olunmuşdur. Bunlar iş yerləri və ixrac üçün yüksək keyfiyyətli "Artsax" məhsullarıdır. Məhsulları gözləyirik!.. "Artsaxa investisiyalar davam edəcək. Mən "Artsaxa" gəlib sərmayə qoymağa hazır olan hər kəsi dəstəkləyəcəm. Bizim "Artsaxı" regionda yaşamaq üçün ən gözəl yerə çevirmək üçün real imkanımız var".

Bu separatçı ünsür Azərbaycan əsgərinin əlindəki silahın, Qarabağ səmalarında kəşfiyyat aparan PUA-ların nişangahındadır və hər an (!) onun çərənləyən başından yeni nəfəslik dəliyi açılması kifayət qədər mümkündür

Bax belə... Ancaq bu separatçı ünsür görünür RSK-nın çətiri altında arvad-uşağı ilə çox rahat gəzəcəyinə o qədər əmindir ki, bu cür sərsəm fikirlərini açıqlayır və söz yox ki, bu qanunsuzluqlara şərait yaradan tərəflər də bəllidir - məhz RSK-nın Qarabağdakı komandanlığı, habelə onları Kremldən Azərbaycana təzyiq üçün istifadə etməyə cəhd göstərən dairələr. Lakin maraqlı məqamlardan biri də budur ki, Vardanyan RSK-nın 2025-ci ildə (belə getsə daha tez-R.R.) Qarabağdan birdəfəlik çıxacağını bilə-bilə əlindəki pul-paralarını həmin torpaqlara sərmayə olaraq buraxır, üstəlik nəinki Xocalıda, eləcə də RSK-nın müvəqqəti yerləşdiyi digər ərazilərimizdə inşaat işləri aparılır. Amma yuxarıda da qeyd etdiyimiz kimi, bu separatçı ünsür(lər) Azərbaycan əsgərinin əlindəki silahın, Qarabağ səmalarında kəşfiyyat aparan PUA-ların nişangahındadır və hər an (!) onun çərənləyən başından yeni nəfəslik dəliyi açılması kifayət qədər mümkündür.

Qaldı ki, Ruben Vardanyanın Nikol Paşinyanın devrilməsi yönündə "siyasi fiqur" olaraq Azərbaycan ərazilərinə "desant" qismində atılmasına, çox yəqin və ümidvarıq ki, Kremldəki məlum, yaxud naməlum adamlar da Azərbaycan ərazilərinin Rusiyanın qaranlıq dairələri üçün hər hansı bir "platsdarm", yaxud "tramplin" rolu olmayacağını anlayacaqlar və belə bir kirli siyasi oyunbazlıqlarına son qoymalı olacaqlar. 2025-ci il heç də uzaqda deyil, cəmi iki il qalır...

*Rövşən RƏSULOV*

# "Qərb Paşinyandan sülh müqaviləsinin imzalanmasını tələb edir"

**"Paşinyanın harada çıxış etməsindən asılı olmayaraq onun danışığında heç vaxt səmimiyyət olmayıb və heç vaxt da olmayacaqdır". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə, Paşinyan parlamentdə çıxış edərək Azərbaycanla sülh müqaviləsi imzalamağa hazır olduğunu bildirməsi də sadəcə Qərb auditoriyası üçün göstərdiyi növbəti şou olduğunu hesab edirəm: "Qərb Paşinyandan Azərbaycanın təqdim etdiyi 5 baza prinsipi əsasında sülh müqaviləsinin imzalanmasını tələb edir. Paşinyan Praqada hətta Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etdi. Ölkəsinə qayıdandan sonra yenə Qarabağda yaşayan ermənilərlə bağlı sərsəm açıqlamalar verdi. Azərbaycan Qarabağda yaşayan erməniləri Azərbaycan vətəndaşları olduğunu və ölkə daxili məsələləri kimlərləsə müzakirə etmək niyyətində olmadığını bəyan etmişdir. Azərbaycanın mövqeyi ilə bütün dünya razılaşmışdır. Amma Qafqazda sülhün olmasını istəməyən 1-2 dairə ermənilərə süni nəfəs verərək ruhlandırır və sülh müqaviləsinin imzalanmasına mane olmağına çalışır. Paşinyanın parlamentdə çıxışı zamanı qeyd etdiyi kimi, Azərbaycanla sülh müqaviləsinin imzalanmasına həqiqətən hazırdırsa bu müqavilənin imzalanması üçün necə hazır olduğunu bildirsin. Təbii ki, bu sualın cavabını Paşinyan vermir. Bəli, əgər Paşinyan öz sözündə səmimidirsə bəyan etsin ki, əlavə əmması olmadan Azərbaycanla sülh müqaviləsinin imzalanmasına hazırdır. Paşinyan təbii ki, belə etmir".



A.Badamov onu da bildirdi ki, Paşinyan sülh müqaviləsinin imzalanmasına hazır olduğunu bildirməklə başqa məkrli planları reallaşdırmaq istəyir: "Təbii ki, belə məsələlərə Azərbaycan heç vaxt imkan verməyəcək və bu mümkün deyil. Sülh müqaviləsini imzalamaq üçün Azərbaycanın təqdim etdiyi gündəlik var və Ermənistan həmin gündəliyi qəbul etməyə borcludur. Əks halda sülh müqaviləsinin imzalanması sadəcə olaraq görüşlərdə danışıqlar mövzusuna çevriləcək uzun bir prosesə çevriləcəkdir".

*Gülyana*

# Özünü sevməyən başqasını sevə bilər?

ARAŞDIRMA

**Hamımız zaman-zaman özümüzü tənqid edir və bədbinləşirik. Bu normal bir davranış olsa da, davamlı olarsa özünə nifrət adlanır. Özünə nifrət insanın bütün davranışlarına görə özünü günahkar hiss etməsinə səbəb olur və həm gündəlik həyatına, həm də münasibətlərinə, xüsusən də özünə zərər verir.**

## Özünə nifrət nədir?

Özünə nifrət, bir insanın davamlı olaraq tənqidi və nifrət dolu bir dillə özü ilə danışması kimi izah edilə bilər. İnsan davamlı olaraq öz-özünə, "Bilirdim ki, bacarmayacaqsan", "Kaş ki, cəhd etməsəydin.", "Sən yazıqsan.", "Heç kim səninlə olmaq istəmir." kimi mənfi cümlələr qurur.

## Özünə nifrətin səbəbləri nələrdir?

İnsanın özünə nifrət etməsinin arxasında müxtəlif səbəblər ola bilər. Bunlardan birincisi insanın özündən çox böyük gözləntilərin olmasıdır. Özünə və qabiliyyətlərinə real nöqteyi-nəzərdən baxa bilməyən insan uğursuzluqları nəticəsində özünə nifrət edə bilər.

## Özünə nifrətin təsirləri

Özünə nifrət insanın həyatının bəzi sahələrinə deyil, bir çox sahələrinə mənfi təsir göstərir. Belə insanların demək olar ki, hər şeydə özünə inam problemi var. Onlar vacib qərarlar qəbul etməkdən, addımlar atmaqdan, başqaları ilə ünsiyyətdən qaçır.

İş həyatında, ailə həyatında, ikitərəfli münasibətlərdə və ictimai vəziyyətlərdə özünə güvənsiz davranan insanın romantik münasibətlərdə də problemləri var. Bir insanın beynindəki tənqidi səs kiminləsə yaxınlaşmaq və əlaqə qurmaq ideyası ilə mübarizə aparır. Kiminsə onun qüsurlarını görəcək qədər yaxınlaşacağından narahatdır. İnsan özünə nifrət duyğusunun öhdəsindən gəlməyə çalışarkən, başqasının onun daxili dünyasını görməsi fikrini qəbul edə bilmir. Belə bir ifadə var ki, "Özünü sevməyən başqasını sevə bilməz". Bəs, bu həqiqətən də belədirmi? Özünə sevgi özündən razılıqdır? Bu eqoizmdir? Özünü sevməyən insan başqasını sevə bilərmi? SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Özünü sevməyən insan kimə deyilir?

Mizantropiya hərfi mənada "insanlara nifrət etmək, ürkmək və ya bəyənməmək" deməkdir. Bu baxış və düşüncələrdə olanlara misantroplar və ya misantropçular deyilir.

## Bəs, insanlar özlərini sevməsə nə olar?

Əgər insan özünü sevmirsə, daim özünü tənqid edirsə, özünə güvənmirsə, təbii olaraq bədbəxt, özünə qəzəbli və məyus biri olacaq.

## Özünü sevmək nə deməkdir?

Özünü sevmək, hansı şəraitdə olursa olsun özünü unutmamaq, özünə qayğı göstərmək deməkdir. Hər şeyə rəğmən var olmaqdır. Heç bir şeyimizi dəyişdirməyə çalışmadan, bənzərsiz təbiətimizlə kim olduğumuzu bilməkdir.

## Özünü necə sevə bilərsən?

- Duruşunuza diqqət yetirin.
- Sevdiyiniz şeylərlə məşğul olun.
- Yox deməyi öyrənin.
- Bir terapevtdən kömək alın.
- Özünüzdən mükəmməllik gözləməyin.

## Özünü sevməyən başqasını sevə bilməz?

Özünü sevməyən başqasını sevə bilməz. Buna görə də özünüzü sevin.

## İnsan özünü necə mükafatlandırır?

Hər gün özünüzü motivasiya etməyin edin:
- Rahat bir nəfəs alın
- Kiçik uğurlarınızı da qeyd edin. Onları - görməzdən gəlməyin.
- Görüləcək işlər siyahısını yarıya bölün.
- Özünüzə yaxşı davranın.
- Zəifliklərinizi qəbul edin.

*Ayşən Vəli*

# "İrəvan sülhə gəlməsə, Moskva ərazilərin qalanını da qaytarmasında Bakıya mane olmayacaq"

**Ötən həftə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Ermənistan-Azərbaycan nizamlanmasına dair üçtərəfli bəyanatı imzalamasının 2-ci ili tamam oldu. Qərb ölkələrinin son bir ildə Rusiyanı nizamlanmada əsas vasitəçi mövqeyindən sıxışdırıb çıxarmaq cəhdlərinə baxmayaraq, faktiki olaraq tarixi sənədin imzalanmasına nail olub, Soçidə Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyan arasında oktyabrın 31-də keçirilən danışıqlarda tərəflər Moskvanın vasitəçilik səylərində maraqlı olduqlarını bir daha təsdiqləyiblər.**



ABŞ-ın Ermənistan-Azərbaycan problemindəki fəaliyyətinə gəlincə, Rusiya Xarici İşlər Nazirliyi bəyan edib ki, "ABŞ-ın xoş niyyəti suallar doğurur". "Çox söz verirlər, amma az şey verirlər. Bəzən təəssüflər olsun ki, "vədlər" altında tamam başqa bir məsələ gizlənir. Sözlərə inanmaq çətindir, amma uzun müddətdir ki, əməllərini nümayiş etdirə bilmirlər"-deyə Smolenskayadan bildiriblər.

Azərbaycan prezidenti İlham Əliyev bir daha xatırladıb ki, əgər Ermənistan xoşməramlılıq nümayiş etdirsə, Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması haqqında sülh müqaviləsi imzalanacaq. "Ermənistan süni şəkildə vaxtı uzatmamalı, hansısa möcüzə gözləməməlidir ki, onların yerinə kimsə gəlib döyüşəcək".

Ötən həftə hökumətin iclasında çıxış edən Ermənistanın baş naziri Nikol Paşinyan növbəti dəfə İrəvanı deyil, Azərbaycanı üçtərəfli bəyanatın bəndlərini yerinə yetirməməkdə ittiham etmək qərarına gəlib və ənənəvi olaraq populist və əsassız ritorikadan istifadə edib ki, guya Azərbaycanın guya Qarabağda "erməni soyqırımı" hazırlayır. Buna görə də, Paşinyan qeyd edib ki, separatçı Qarabağda qondarma "Müdafiə Ordusu" fəaliyyət göstərir. Yeri gəlmişkən, Azərbaycanda qeyri-qanuni erməni silahlı birləşmələrinin ərazidən çıxarılması öhdəliyi üçtərəfli bəyanatda qeyd olunur, vaxtaşırı Azərbaycan mövqelərində təxribat və atəşlər təşkil edir.

Ümumiyyətlə, çtərəfli bəyanatın imzalanmasının ikinci ildönümündə Ermənistan-Azərbaycan nizamlanmasında vəziyyət necədir? Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Fenenko "Moskva-Baku" portalına müsahibəsində bunu şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Aleksey Valeryeviç, bu gün nizamlanmada nəyə gəlmişik, vəziyyət necədir?***

- Təəssüf ki, ümumilikdə iki ildir nizamlanmada heç bir iş görülməyib. Müxtəlif səviyyələrdə, müxtəlif vasitəçiliklə danışıqlar nə qədər intensiv aparılsa da, bu günə kimi strateji problemlərin heç biri həllini tapmayıb. Bütün bunlar, müharibədən əvvəl olduğu kimi, tədricən toplanır və qeyri-müəyyən bir gələcəyə təxirə salınır.

Sülh prosesi getdikcə zəifləyir, Ermənistan qisas almağa kömək edəcək müttəfiq axtarır, erməni cəmiyyətində revanşist müharibəyə ümidlər çox güclüdür. Ermənistanın prosesin hər hansı tamhüquqlu sülh yolu ilə nizamlanmasına, sülh müqaviləsinin imzalanmasına razılıq verməyə hazır olmadığı ortadadır. Nikol Paşinyan qisas almaq üçün Rusiyanın mövqeyinin zərərinə NATO-ya yaxınlaşmağa hazırdır. İndi Ermənistanın onsuz da ənənəvi məqsədi həyata keçirilir, onun onilliklər boyu etdiyi budur- Azərbaycanla danışıqları mümkün qədər ləngitmək, bu prosesi sonsuz formallığa çevirmək. Paşinyanın sələfləri də bununla fəal məşğul olublar.

Ermənistanın baş naziri ya nizamlanmada vəziyyəti bu gün bizim gördüyümüz mərhələdə- heç nə qərara alınmadığı halda saxlamaq, yəni danışıqları tərəflərin heç nə ilə razılaşa bilməyəcəyi, mahiyyət etibarilə razılaşa bilməyəcəyi bir vəziyyətdə saxlamaq istəyir. Erməni əhalisinin indi yaşadığı Qarabağın bir hissəsini- Azərbaycana qaytarılan ərazilərin bir hissəsini geri almağa cəhd edir. Ancaq bu fikir açıq-aşkar uğursuzluğa məhkumdur. Ermənistan sadəcə olaraq Qarabağın qalan hissəsini itirəcək və məğlub olacaq. İndi Ermənistan hakimiyyəti deyir ki, ölkə ordusunu modernləşdirəcək, bir az da silah alacaqlar. Gələcəkdə o, Qərb "tərəfdaşlarından" silah və hərbi yardım alacağını gözləyir.

***- Paşinyanın bu mövqeyi yaxın gələcəkdə sülh sazişinin bağlanmasının real imkanlarını əngəlləyir. Bəs niyə nizamlanmadakı vəziyyət indi bizim gördüyümüz kimi inkişaf etdi? Axı, İkinci Qarabağ müharibəsindən dərhal sonra, üçtərəfli bəyanatın imzalanmasından sonra perspektivlərlə bağlı daha müsbət fikirlər yaranmışdı. Paşinyan sonra həqiqətən də nəsə etdi. Axı, İkinci Qarabağ Müharibəsindən sonra belə görünürdü ki, geri dönüş yoxdur və tək inkişaf nöqtəsi qabağa getməkdir və Ermənistan-Azərbaycan nizamlanmasında heç bir reviziya olmayacaq.***

- Doğrudan da, bu geri dönüş nöqtəsi indi də mövcuddur. Çünki Azərbaycan bir millimetr belə nəyisə geriyə "geri çəkməyə" imkan verməyəcək. Çünki Azərbaycan hər cəhətdən, regional roluna görə və ümumilikdə geosiyasi baxımdan və yaranan beynəlxalq vəziyyət fonunda güclənib. Ona görə də onun üçün yalnız irəli getmək və Ermənistanın və onun lobbiçilərinin vəziyyətə və Ermənistan-Azərbaycan nizamlanmasında əldə edilmiş razılaşmalara yenidən baxmaq cəhdlərini dayandırmaq imkanı var.

Paşinyan niyə sazişlərə yenidən baxılmasına nail olmağa çalışır? Əvvəla, ona görə ki, o, hələ də ölkə daxilindəki radikallardan qorxur və qisas ideyasından əl çəkərsə, onu devirməklə açıq hədələyir. İkincisi, Paşinyan Parisdən və Vaşinqtondan, birbaşa desək, zəmanətlər aldı, ümidverici siqnallar aldı ki, əgər o, tamamilə Qərbə tərəf keçməyə hazırdırsa, o zaman ona müəyyən dəstək göstəriləcək. Ona görə də Ermənistanın baş naziri digər müttəfiqlərdən bu siqnalları Rusiyaya alternativ almaq ümidi ilə bu şəkildə qarşılayıb. Üçüncüsü, bu il Rusiyanın diqqəti kəskin şəkildə Ukraynaya yönəlib və Moskva indi Zaqafqaziyaya lazımi qədər vaxt ayıra bilmir. Dördüncü məqam isə ondan ibarətdir ki, amerikalılar və fransızlar Rusiyanı mümkün qədər Zaqafqaziyadan sıxışdırıb çıxarmaq üçün Ermənistana təzyiqləri artırıblar.

***- Paşinyan yenidən bütün günahı Azərbaycanın üzərinə atdı, deyir ki, öhdəliyini yerinə yetirməyən Bakıdır.***

- Bu, heç bir əsası olmayan tipik ittiham xarakterli ritorikadır. Ritorika Ermənistanın qurban olduğunu, Azərbaycanın guya işğalçı olduğunu bir daha göstərmək məqsədi daşıyır. Baxmayaraq ki, əvvəla bu, əksinədir. Yəni, İrəvan danışıqların növbəti mərhələsini pozmaq üçün köhnə oyununa başlayır. İrəvan belə məntiqlə çıxış edir: biz nəsə etmək istərdik, amma Azərbaycan istəmir, Türkiyə istəmir, Rusiya istəmir, kimsə istəmir...

Ermənistanın baş nazirinin Azərbaycanın Qarabağda "erməni soyqırımı" hazırlaması ilə bağlı bəyanatları Qarabağın "statusa" ehtiyacı olduğuna işarədir, əks halda beynəlxalq hüquqa görə, ona məxsus olan ərazilərdə statusa haqq qazandırmaq lazımdır- hansı ki, bu başqa bir dövlətin ərazisidir, siz isə bu ərazini üstəlik, daha əvvəl işğal etmişsiniz. Yalnız etnik zəmində "soyqırım" təhlükəsi altında fikir irəli sürülür. Amma təbii ki, heç bir soyqırım hazırlanmır, hamısı yalan və böhtandır, Ermənistanın siyasi və informasiya populist alətidir. Yeri gəlmişkən, Paşinyan özünün Qarabağ bölgəsinin Azərbaycanın nəzarətində olmayan hissəsində qondarma "müdafiə ordusu"nun olmasını da izah edir, baxmayaraq ki, çoxdan geri çəkilməli idi. Yəni, Ermənistan özü üçtərəfli razılaşmaları pozur və indi əldə olunmuş razılaşmaları manipulyasiya etmək və pozmaq üçün yeni cəhdlər edir.

Ermənistan həmişə hər şeylə kifayətlənmir. O, heç nədənsə razı qalıbmı? O, həmişə sülh yolunda irəliləməyin mümkünsüzlüyünün səbəblərini tapmağa çalışır. Paşinyan Qərbin köməyi ilə ordusunu yenidən silahlandırmaq və qisas almaq üçün vaxt qazanmaq istəyir.

***- Rusiya ilə Qərb arasında nizamlanmada vasitəçilik mübarizəsi qızışır. Bu, etiraf etməmək nə qədər çətin olsa da, getdikcə daha çox açıq görünür. Bəli, Rusiya 2 il əvvəl tarixi sazişi imzalamaqla özünü vasitəçi kimi göstərdi. Amma indi Moskva etiraf edir ki, Qərb prosesə çox fəal şəkildə qoşulub.***

- Rusiya Ukraynada Qərblə münaqişədədir. Qərb isə belə qərara gəlir ki, dünyanın müxtəlif yerlərində Rusiyanın maraqlarına təzyiq etmək lazımdır. Və bunu edir- getdikcə daha çox. Beləliklə, o, Ermənistan-Azərbaycan nizamlanmasından yapışdı. Qərbin vasitəçiliyi ilə görüşlərin bir-birini izlədiyini görürük.

Ermənistanın bu görüşlərdə məqsədi bəllidir- Qərb tərəfdaşlarını dəstəkləmək və Rusiyanın vasitəçiliyi ilə üçtərəfli sazişlərə yenidən baxmaq.

Azərbaycan prezidentinin danışıqlar prosesini prinsipial olaraq saxlaması vacibdir. Və o, danışıqlara razıdır, çünki məsələnin yekun həlli Bakı üçün vacibdir.

Nizamlanma ətrafında ssenarinin necə inkişaf edəcəyi Ukraynadakı vəziyyətdən asılı olacaq. Rusiya sonda Ukraynada Qərbə qarşı uğur nümayiş etdirsə, Rusiyaya təzyiq kəskin şəkildə azalacaq. Heç kim güclülərlə qarşılaşmaq istəməz. Rusiya üçün vəziyyət çətinləşərsə, təzyiqlər artacaq.

Hər halda bir şey aydındır- Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi yaxın gələcəkdə imzalanmayacaq. Ermənistan rəhbərliyinin əhval-ruhiyyəsi tam hüquqlu sülh müqaviləsinin imzalanmasına qətiyyən imkan vermir. Bu halda, danışıqlar müharibədən əvvəl olduğu kimi, sonsuz olaraq davam edə bilər. Amma Ermənistan Rusiya ilə nəhayət dalaşmaq axmaqlığına yol versə və bu gün bunun üçün hər şeyi edirsə, Azərbaycan Ermənistanın razılaşmalarını yerinə yetirməmədiyini və ondan yalnız təxribatları artmasını görməyə başlayanda öz ərazisinin qalan hissəsini də qaytarmağa cəhd edər və Moskva ona mane olmaz.

***Tərcümə - Elçin Bayramlı***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" çərçivəsində hazırlanıb.

ARAŞDIRMA

# Dəm qazı kabusundan necə qorunmalıyıq?



**Dəm qazı və ya məşhur karbon monoksit (CO formulası) qoxusu, rəngi və dadı olmayan, çox zəhərli və insan sağlamlığı üçün təhlükəli olan qazlı birləşmədir.**

Karbonmonoksit, tərkibində karbon olan istənilən materialın yanması zamanı əmələ gəlir. Bunlar benzin, təbii qaz, dizel yanacağı, kömür, odun və digər üzvi materiallar, o cümlədən mebel və məişət əşyalarıdır. Yanma prosesi üzvi maddələrin oksidləşməsinə gətirib çıxarır və karbon dioksid (karbon dioksid) suyun sərbəst buraxılması ilə müşayiət olunur. İdeal olaraq, tam yanma bu iki maddə ilə məhdudlaşır. Lakin normal yanma şəraitində oksigen çatışmazlığı (xüsusilə qapalı və ya zəif havalandırılan məkanda) olur ki, bu da karbonların natamam oksidləşməsinə və dəm qazının əmələ gəlməsinə səbəb olur.

Karbonmonoksitin təsiri tənəffüs yollarına daxil olduqda, bu birləşmənin molekulları qana tez sorulur və hemoqlobin molekullarına bağlanır. Bu halda karboksihemoqlobin əmələ gəlir, insan orqanizmində oksigenin daşınmasına mane olan və çox tez oksigen çatışmazlığına səbəb olur.

Az miqdarda karbonmonoksit konsentrasiyası (0,08% -dən çox olmayan) boğulma və baş ağrısına səbəb olur, əgər 0,32% -dən çox olarsa, iflic və huşun itirilməsi müşahidə olunur. Bu konsentrasiyaya 25-30 dəqiqə məruz qaldıqda, çox güman ki, ölümlə nəticələnir. Karbonmonoksit zəhərlənməsinin simptomlarından asılı olaraq üç dərəcə şiddəti fərqləndirilir. Zəhərlənmə 3 dərəcədə - yüngül, orta, ağır ola bilər.

İşıq şiddəti: Bu mərhələ kimi karbonmonoksit əlamətləri ilə xarakterizə olunur: ümumi zəiflik, baş ağrısı, başgicəllənmə və tinnitus, həmçinin görmə funksiyasının pozulması. Zəhərlənmə quru öskürək, nəfəs darlığı, lakrimasiya, ürəkbulanma və taxikardiya ilə müşayiət olunur.

Orta şiddət. Bu vəziyyətdə yuxarıda göstərilən bütün əlamətlər yalnız qorunmur, həm də ağırlaşır. Beləliklə, ürəkbulanma hissi qusmaya çevrilir, qısa müddətli şüur itkisi, halüsinasiyalar, sinə içində sıxıcı ağrı hiss olunur.

Ağır dərəcə. Yuxarıda qeyd edildiyi kimi, dəm qazının əsas xüsusiyyəti insan orqanizmində oksigen çatışmazlığına səbəb ola bilməsidir.

Nisbətən uzun müddət məruz qalma ilə (15-25 dəqiqə) qanda bioloji və fiziki parametrlərdə geri dönməz dəyişiklik baş verir, iflic, uzun müddətli şüur itkisi, komaya qədər müşayiət olunur. Qıcolmalar, qeyri-iradi sidiyə getmə və bağırsaq hərəkətləri, dərinin və selikli qişaların maviliyi də müşahidə olunur. Bu vəziyyətdə, oksigen çatışmazlığı səbəbindən bir insanın nəfəs alması səthi və fasiləli olur.

Toksikoloqların fikirlərinə görə, dəm qazından zəhərlənmə hallarında ilkin tibbi yardımın köməyi ilə zəhərlənəni həyata qaytarmaq mümkündür. Hər kəs bilməlidir ki, əgər yanacaq məhsullarının xaric olması üçün yer yoxdursa və ya həmin yer tutulubsa, natamam yanma nəticəsində dəm qazı əmələ gəlir. Ona görə də yanacaq yandırarkən çox ehtiyatlı olmalıyıq. Qaz iysiz, rəngsiz olduğundan insan bunu hiss etmir. Oksigendən fərqli olaraq, qazın havada az miqdarda olması belə kifayət edir ki, 5-6 dəqiqəyə insan zəhərlənsin. Dəm qazının oksigenlə birləşməsi nəticəsində karboksihemoqlobin yaranır. Məhz bu birləşmənin hesabına toxumalar oksigensizləşir, hipoksiya yaranır.

## Dəm qazı zəhərlənmələri zamanı ilk hansı addımlar atmalıdır?

SİA mövzu ilə bağlı araşdırma edib. Belə halda ilk növbədə zəhərlənən həmin sahədən çıxardılmalı, hipebarik oksigenasiya tətbiq olunmalıdır. Süni tənəffüs verilməlidir. Daha sonra zəhərlənənə amonium tərkibli məhlul iylətmək lazımdır.

Dəm qazı ilə zəhərlənmənin ilk əlamətləri meydana çıxan kimi təcili yardım çağırmaq lazımdır. Əgər ilk tibbi yardım düzgün yerinə yetirilərsə, sonrakı yardımlar həkimlər tərəfindən aparılacaq. Odur ki, zəhərlənən şəxsə həkim gələnə qədər göstərilən ilkin tibbi yardım mühüm, həyati əhəmiyyət kəsb edir. Əgər həmin şəxsin huşu özündədirsə, dərhal qapalı mühitdən təmiz havaya çıxarmaq lazımdır. Sonra ilk növbədə zərərçəkənin üstü örtülməlidir ki, bədən hərarəti düşməsin. Sonra mütləq mütəxəssisə müraciət olunmalıdır. Huşu özündə olmayan insanı da təmiz havaya çıxarmaq, ağız boşluğunu selikdən təmizləmək, nəfəs almasını bərpa etmək, süni nəfəs vermək lazımdır. Digər tədbirləri görmək üçün zərərçəkəni mütəxəssisə çatdırmaq zəruridir. Əgər insan sadə suallara reaksiya verir, cavablandırırsa, bu o deməkdir ki, onun huşu itməyib. Yox, cavab verə bilmirsə, reaksiya yoxdursa, hər an təhlükəli sayılmalıdır. Bu məsələdə hər saniyə çox önəmlidir. Vaxt itirilsə, beyin hüceyrələri, toxumaları ilə bağlı az bir zamandan fəsadlaşma başlayır. Bundan başqa, ən yüngül halda belə, dəm qazından zəhərlənən şəxs sonradan fəsadların yaranması üçün bir sutka ərzində həm toksikoloqun, həm də nevropatoloqun nəzarətində olmalıdır.

Fövqəladə Hallar Nazirliyinin elan etdiyi ehtiyat tədbirlərə görə qızdırıcı soba ilə mənzilin ölçüsü uyğun gəlməlidir. "Misal üçün, mətbəx həddindən artıq kiçikdirsə və orada zəruri olan ventilyasiya sistemi quraşdırılmayıbsa, böyük ölçüdə qaz pilətəsi qoymaq olmaz.

Bu eyni qayda hamam otağına da aiddir. Kiçik hamam otağına böyük ölçülü suqızdırıcının qoyulması təhlükəlidir. Cihazın borusunun çıxış yeri olmalıdır. Zəruri ventilyasiya sistemi yoxdursa, mütləq hamam otağının qapısının aşağı hissəsində hava oynaması üçün dəliklər açılmalı və ya qapalı mühitdə qaz yandırılarkən nəfəslikər açıq olmalıdır.

## Dəm qazı ölüm təhlükəsi yaradır!

Bu təhlükədən qorumaq üçün:

Qaz cihazı saz və standartlara uyğun olmalı;

- cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı;
- havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı;
- hamam otağında ventilyasiya borusu, qapının aşağısında dəliklər olmalı;
- tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

Ondan zəhərlənmənin əlamətləri:

baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, halsızlıq.

Dəm qazından zəhərlənmiş insanı təmiz havaya çıxarıb, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad etmək, təcili tibbi yardım çağırmaq lazımdır!

***Havar Şəfiyeva***

## ELAN

Şamaxı rayonu Avaxıl Bələdiyyəsinin 10.08.2007-ci il tarixli 09 saylı qərarına əsasən Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən tertib olunmuş Ömərov Elim Sərdar oğlunun adına verilmiş 28.12.2013- cü il tarixli A 476797 saylı Torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.



# Uşaqlar neçə yaşdan etibarən dişlərini fırçalamalıdır?

"Uşaqların ilk dişləri çıxdığı andan etibarən dişlər fırçalanmalıdır. Təbii ki, süd dişləri 6-cı aydan sonra çıxmağa başlayır və bu müddətdə uşaqlar öz dişlərini fırçalaya bilmədikləri üçün valideynlər yumşaq tüklü fırçalardan istifadə edə bilərlər". Bu fikirləri SİA-ya açıqlamasında pediatr Sevda Novruzova bildirib.




Onun sözlərinə görə, hətta yumşaq bezlərdən, tamponlardan istifadə edərək dişlərin dibini, yaxud da damağı silə bilərlər: "Ümumiyyətlə, damaqlar təmiz saxlanmalı və analar buna diqqət yetirməlidirlər. Bəs süd dişləri tökülürsə, onları təmizləməyə ehtiyac varmı? Süd dişləri bir müddət sonra tökülür və daimi dişlərlə əvəz olunur. Daimi dişlərdən əvvəl damağa yaxşı qulluq edilibsə, daimi dişlərdən sonra bu faktor damağın sağlamlığına öz təsirini göstərir.

Uşaqlar üçün diş fırçaları seçərkən nələrə diqqət yetirməliyik? Əvvəla onu qeyd edim ki, çox yumşaq tüklü fırçalardan istifadə olunmalıdır. Həmçinin, diş pastalarından da istifadə etmək mümkündür. Diş pastası seçərkən qablaşdırmanın aşağısında yaşıl cizgisi olan pastanı seçməliyik. Çünki onlar tam təbiidir. Yanlışlıqla uşaq pastanı udarsa qorxulu problem yaranmaz. 2 yaşından sonra uşaqlarda rahat şəkildə dişlərini fırçalamaq vərdişləri yaranır.

Bəzən uşaqlar dişlərini fırçalamaq istəmirlər. Bunu məcburi bir iş kimi deyil, əyləncəli bir məşğuliyyət kimi uşaqlara açılamalıyıq. Diş fırçalayarkən hər hansı bir musiqini dinləmək və ya qısa cizgi filmlərə baxmaq onlara daha əyləncəli gəldiyi üçün bu prosesə tez adaptasiya ola bilərlər".

***Abutel İlhamqızı***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3600**